**Zilaləbanu**

# YALQIZ QUŞ

*Şeirlər və xatirələr*

**Bakı - 2024**

Azərbaycan dilinə uyğunlaşdıran:
***Şahməmməd Dağlaroğlu***

Layihə rəhbəri:
***Qulu Kəngərli***

Redaktor:
***Əli Vəliyev***

Tərtibçi:
***Sona İsmayılova***

Zilaləbanu
**“Yalqız quş”**
**Bakı “Zərdabi Nəşr” MMC, 2024, 144 səh.**

**ISBN 978-9952-571-92–9**

Zilaləbanu Xalıqova 1987-ci ildə Jizzax şəhərində anadan olub. 6 yaşında birinci sinfə gedib. 6-cı sinfə qədər oxuyub. Sənət Kollecinin xoreoqrafiya - milli rəqs bölməsinə imtahansız qəbul olunub. 9 yaşından yaradıcılıqla məşğuldur.

Onun “Unutmaq asan deyil”, “Leyli mahnısı”, “Gövhərim var”, Könülə yol”, “Sükunət mələyi”, ”Yalqız quş” adlı şeir kitabları çapdan çıxıb. Beynəlxalq, Respublika səviyyəli almanax və antologiyalarında, dövri mətbuatda şeirləri çap olunub. 2021-ci ildən Özbəkistan Yazıçılar Birliyinin üzvüdür. Bir sıra Beynəlxalq festivalların iştirakçısıdır.

© Zilaləbanu, 2024

# MÜƏLLİFDƏN

Əziz həməsrim!

Həyata gəldiyimdən bu yana özümdəki qeyri-adi dəyişikliklərdən bəzən lal qalan, bəzən çıxılmaz vəziyyətə düşən vaxtlarım çox olub. “Mən kiməm?” sualı məni heç vaxt tərk etməyib. Özümlə baş verə bilən hər cür hadisələri gah zövqlə yola salsam, gah da üzümə təşviş əlamətləri xətt çəkməyə başladı. Qəlbən olduqca zəkalı qız kimi böyüsəm də, yaddaşımda ən inçik, inadkar, söz başa düşməyən qızcığazlara xas şıltaqlıqlarımla kimlərisə yaralamağım, hətta yaxınlarıma da əzab verməyim mümkündür.

Uşaqlığın əyləncəli günlərinə qayıtdığımda çox əhvalatların xatirəmdən uçub getditini sezirəm. Yaradıcılıq qabiliyyətimi öz vaxtında hiss edəndə, bəlkə hər anımdakı hadisələri maraqla ağ vərəqlərə köçürməliydim... Daim yüz yaşlı qoca ürəyimə girib ordakı laylaları aydınlaşdırıb oturar, özümü həyatda uşaqtək zənnetməyə, yaşıma yaraşan iş görməyə məcbur olunan kimi olurdum. Gah dələduz uşaqlığa, gah ağıllı Zümrədxanıma, gah qəddar zalıma çevrilərək öz təsəvvürümdəki qəhrəmanımı formalaşdırırdım.

Bağçada da çöx fəal olmuşam. Ən çox əzizləndiyimi və özümü mələklər kimi aparmağımı bağçada hisss etmişəm, öyrənmişəm desəm təəccüblənməyin. Onda dörd-beş yaşında olsam da tərbiyəçilərimin bir dəfə də sərt danışmalarını, toxunmalarını yada sala bilmirəm. Digər qrupdaşlarıma çox rəhmim gələrdi. Bir uşaq yatmasaydı yaxşıca kötək yeyərdi, hətta oyuncağı da icazəsiz oynada bilməzdi. Bunun - məndə ilk dəfə oyanan rəhm, şəfqət duyğusu olması təəccüblü deyil.

Müxtəlif bayramlarda ara-anam bağçamıza öz sazəndələri ilə gəlib fərqli tədbirlər keçirər, mən isə rəqs edərdim.

Tamaşaçıların baxışlarını hiss edəndə ilk dəfə fəxr duyğusunun məni bürüməyə başladı. Sonda hamının baxışı məndə, hamı əl çalmaqda idi...

Uşaqlığımı dönə-dönə yada salıram. Sanki məsud anlarıma qayıtmağı və orada ömrü boyu qalmağı istəyəntək... Ata-anamın sənətkar olması və mənim də əksər səfərlərdə olmağım üçünmü bu barədə xeyli təcrübəyə yiyələnmişdim. Hər bayramda yaşayış yerimizdəki oğlan və qızlar toplaşıb binalarımızın girişlərini mövsümə uyğun bəzəyərdik. Babamın evdəki bütün "instrument"lərini çölə çıxarıb, yerləşdirib konsert verərdik. Əlbəttə, kağızdan düzəldilmiş biletlərimiz də olardı. Bəzən pul, bəzən də digər hədiyyələr verərdilər.

Məktəb dövrü mənim üçün ən əzablı, anlaşılmaz, boynumu bərkidən, beynimi incidib keçən vaxtlar, laylaya bənzər riyazi terminlər, coğrafiya, yer üzünün bir kağız üstündə ilan olub, düzülüb duran bilgilərini höccələyib oyrənmək ərimək duyğusu verirdi. Mənə bu dərslərin marağı yox kimi idi, zəngin çalınmasını gözləyərdim.

Musiqi dərsinə marağım artmağa başlayanda dördüncü-beşinci sinifdə oxuyurdum. Məktəb dövründən mənə xoş olan, yaddaşımda qalan tədbirlər, gəzintilərdir. Nəğmələr, folklor mahnıları, deyişmələr, tamaşalar olduqca maraqlı olardı. Belə vaxtlarda ədəbiyyata da yavaş-yavaş girişməyə başladım.

Xoşbəxt uşaqlığımı ağır xəstəlik dəlik-dəlik etdi və ondördüncü baharımdan bu yanı ancaq xəstəliklərlə keçdi.

Arzulamaqdan, can atmaqdan, öz üzərimdə işləməkdən yorulmadım. Səhvlər, maneələr, daxili çəkişmələr. üsyanlar vaxt keçdikcə məni yaradıcı olmağıma, qələm tutmağa məcbur etdi. Xəstəlik mənə nə verdi? O məni ömür boyu insan səsini eşitməkdən məhrum etdi... Bununla həyat dayanıb durmadı, əksinə, daha güclü davam etdi və xəstəlik mənə ağı qaradan

tanımağı öyrətdi. Ən mühümü, insan qəlbini eşidə bilməyənlər tayfasından deyiləm.

Xatırlayıram, eşitməməyimlə bağlı yeganə yadımda qalan özümü itirən günüm yalnız bircə dəfə olub. Uzunmüddətli müalicədən sonra xəstəxanadan evə qayıtdım. Həmin günlərdə doğum günüm keçirildi. Mən o vaxtlar indi çoxlarında olan pleyerə sahib olmağı daim arzu edirdim. Böyük bacım və yezinəm mənə zərif çəkmlər və pleyer bağışladılar. Sevincimin həddi yox, qulaqcığı qulağıma oturdana qədər eşitməməyim heç kimin xəyalına da gəlmədi. Belə dinləyişə hərəkət etsəm də, səsi yüksəltsəm də eşidə bilmədim. O vaxtdakı halımı sözlə ifadə edə bilmirəm. Özümü kütlədən aralı duydum. Sakitcə qulaqcığa son deyib, onu kiçik bacıma hədiyyə etdim və çəkmələri götürüb geyindim, yetərincə yaraşıqlı oldu. Atılıb-düşərək, sanki dərdimin unutmaq istəyirmiş kimi bağıraraq güldüm, özümü yaxınlarımın önündə özümü itirmiş, kədərli kimi göstərmək istəmədim... Başlıcası, yaxınlarım var. Məni bundan sonra da saxlayıb, qüvvətləndirib yaşadacaqlarına inanıram.

Əziz oxucum! Bu yazdıqlarımı dostlarım, sirdaşlarım, yaradıcı həmkarlarım üçün yazdım. Qəlbnamə tərzində o qədər mükəmməl olmasa da, ürəyimin səsini bir qədər dinləsəniz, mən bundan sevinərəm!

# Öyrəndim

Misilsiz əzablar, misilsiz qəmlər,
Qəlbimim içinə çökdü ələmlər.
Nə var yazıb sonda sınan qələmlər,
Hər anda Allaha sığındım, ana,
İndi yaşamağı öyrəndim, ana!..

Səbrim də sayıldı, qəlbim gah sındı.
Xəyanət görəndə göz yaşım dindi.
Gözlərim ağı, həm qaranı gördü...
Tək sənin mehrinə söykəndim, ana
İndi yaşamağı öyrəndim, ana!

Aqibət dostluğa tüpürüb getdi,
Sözümdə qəzəblər qabarıb getdi.
Məhəbbət ürəyi uçurub getdi.
Özümlə alışıb dərdləndim, ana,
İndi yaşamağı öyrəndim, ana!

Nağıltək ötübdü otuz il ömrüm.
Özümün üstümə tökülür külüm.
Yox, hələ indi də gəlməyir ölüm.
Mən hələ həyatı görmədim, ana...
İndi yaşamağı öyrəndim, ana!

Yaxşıya dost oldum, yamandan uzaq,
Əslində məni mərd etməkdə fəraq.
Qəlbimdə yanmaqda əbədi çıraq,
Rəbbə gecə-gündüz güvəndim, ana,
İndi yaşamağı öyrəndim, ana!...

***

Tək adamlıq yol,
Səssicə guşədə
Bürünüb yatıbdır bir qaraltı.
Ona sarı addımlayıb gedirəm.
Nələrsə havada gəzinər
Bir qoxu, müəttər qoxu...
Kimsiz?..
Xışıldadıb xəzanı bostan boyu,
Getməkdədir mələk qız...

***

“Geri qayıt!..”
Səslənməkdə bir nida.
Kiçiklər göstərər hikkəsin.
Sarışın qız getməkdə... sükunət,
Qaraldıb getməkdə öz rəngin.

***

Sükunət  payız kimi əmanət,
Onda tam pıçıldayar
Xışıldayar
Füsunkar gecədə cilvələnər.
Şüurumda bərq vurar xatirələr.

## Dəvət

Kimsəsiz yol
Gedirəm, getdikcə uzaqlaşıb.
Son nöqrədən
Bir səda gələr,
Dayanın görək!
Dayanın görək!

***

Həyəcan... göy gurultusu,
Payız havasını çalmaqda varlıq.
Bədənim uığılır, soyuq titrək bu
Bu nədir, Xaliq?!

O gedən kimdir?
İşarə edən qız...
O görünməz, çox qəlbəyatan.
Saçları yayılmış,
Ürəyi sınmış
Allahım, məni də onuntək sevdir!

Varlığı,
Adəmi,
Aləmi,
Oxusun təbiət dilini.
Anlasın ruhiyyət elmini.
O qayıtsın,
O mənim ilhamım
Olmasın əvvəldən istədim.

O – noyabr,
Göz yaşına qərq olan.
Təmiz göynəyini palçıqlı edən
Noyabr o!..

Təmtənha yol,
Saralmış guşədə
Bürünüb yatır bir qaraltı...

***

Məni qınamayın,
Siz düşünən qədər güclü deyiləm,
Siz düşünən qədər məğrur deyiləm
Mənim eyibim bu, bildiyim də bu:
Sizi sevirəm,
Məni qınamayın!..

Yaman inciyənəm,
Ya çox inadkar
Mənimtək gülməniz pərtlik sayılar
Siz düşünən kimi olmamağım düz.
Siz düşünən kimi gülməməyim düz.
Amma  əqidəm bu
Qəlb sözüm də bu:
Sizi sevirəm!

Gedirsizmi?
Çox yaxşı, gedin!
Amma unutmayın əl yelləməyi.
Bu gözlərim sizi axtarsa.
O əl yellənişin canlandıraq biz

Gəlim yenə bir gün.
Bir söz də deyin.
Olar: pissən, - deyin.
Lovgasan, - deyin.

Olar, ürəyimi şərt ilə əzin,
Durub, əzib atın, yaşayın bəxtdə.
Bəlkə yerlə-yeksan olacam onda.
Sizi səsləyəcəm inildəsəm həm:
"Sizi sevirəm!.."

Yuxu – o günlər, yuxu.
Hə, şirin yuxu.
Yarpaqları tökülən ağactək,
Saçlarım töküldü.
Hisslərim töküldü.
Üzüm – saralmış,
Sözlərimdə qarğış
Hanı o məsafə,
Nəfəslər birləşən axşam?
Hanı o ürəyimin üstündəki güllər?
Hanı?

***

Səssiz sükunəti eşitdinizmiı?
Verimmi özümün qulaqlarımı?
Oldu, bəs deyincə bağırıb, coşub,
Dinməkdən saxlayın dodaqlarımı.

Danışmıram indi...
Dinləmirəm də!
Belə, razısızmı, dursam dinc, qərib
Qismət şadlıq şövqü verdiyi qıza,
Sükunəti ədəb saymaq əcayib...

Pıçı-pıçı səsi yedi beynimi,
Gah kinsə bağırıb, ağlayıb, durur.
Gedən həvəsimi sənə verimmi?
Kiçik qulaqlarım şeir oxuyur.

Çırt-çırt,
Gup-gup
Xırç-xırç
Zzzzzzzz
Budur, belə səsdir mənim yoldaşım
Arzu edərmisiz hər gecə onu?
Bilməzsiz nə çəkir ürəyim, başım
Dincliklə dilərsiz məndən hər günü.

Dillər lal oldular,
Eşitmir qulaq.
Anlaya bilmirik bir-birimizi
Budur, indi türfə səslər dinləyib
Təklik yada saldı kimliyimizi.

Bu qədər keyik biz,
Bu qədər müdrik.
Biz bəxti bu qədər qoyuruq lağa
Kar və kor, hər iki hisslər döyüşdə
Çilik-çilik oldu
Eşq adlı ayna.

İndi avazımı eşitdinizmi?..

## Sübh nəğməsi

Sübh tezdən oyanan gül qönçəsitək
Dodaqlarım təşnə olar busəyə.
Yastıq bomboş, qəlbi qurşayar qorxu
Ürək batar  qəfil qəmə, qüssəyə.

Quşlar soraq tutub gələrlər tezdən
Pəncərəmdən məyus-məyus baxarlar.
Cik-cik edib açılmayan qəlbimin
Qapıların canlandırıb çıxarlar.

Günəş baba gülüb baxar qürurlu
Qəmli üzüm alovlanar həyadan
Ah, bunca da atəş xəyal sorğulu
Axtarım mən, yarım, səni haradan

Qönçələrə baxıb, sakitcə öpsəm,
Atəş olub dodağım yandırar.
De, nə edim  qırıq qəlbin arzusun,
İstəklərin... sevginimi qandırır?

Namazgülü məğrur baxar ətrafa,
Gecələri dua edib saxlayar.
Düçar olsam əgər min bir əzaba,
Mənim gözüm şəbnəm olub ağlayar.

Gəl, bağrında doly Aytək parlayaq,
Ürəyinin avazını eşidək.
Hüsnüm ilə, sevgim ilə güc alaq,
Buzlaqlardan gələn qəlbi əridək.

Sübh tezdən oyanan gül qönçəsitək
Dodaqlarım təşnə olar busəyə.
Yastıq bomboş, qəlbi qurşayar qorxu
Ürək batar  qəfil qəmə, qüssəyə.

***

Əvf etməyin, haqqi demədən geriyə dönsəm,
Natamam, sözüm dinləsə imanları.
Minbərləri silkələyib bir söz desəm
Coşdura bilsin mürgülü vicdanları

O xalq deyə yanan, müti ürəyimə
Azar verən yaramaz halım olsun.
Rahatlıqlar üstündə qərar tutanlar
Bir sözümə başın əyib təslim olsun.

Bir söz ver sən, dilimə tək bircə söz ver.
Bir titrədək, silkələyək könlü daşın.
O söz ilə  zərrə vicdan oyansaydı,
Və könlünə yol tapsaydı qız qardaşın.

Minbərlərdə duran olsam vüqar ilə
Gözümdəki yanğıları söndürmə sən.
Qeyrətimi, şücaəti bir qoruyaq.
Gənc canımı dindirmə sən, sındırma sən.

Bir söz deyəm, ah tökülə gedə guruh,
Hər dəqiqə, hər addımda yad edə el
Uçuş edə, arzu qucub yüksəyə ruh
Yazdığımı dinləyən qəlb olaydı sel

Hər sözümün sədaları göyü qucsun.
Dua olub, yetib çatsın qulaqlara,
Soyuq qəlbə bircə anda alov düşsün
Şükranlığın sözü uçsun dodaqlarda

Bu el qızı olub mən də istiqlalin,
Günəşində tab gətirib zövqə yetək.
Azadlığın küləkləri yeni halın
Gülən qəddin əyəmməsin acıq gərək.

Mən günəşəm, təbəssümü xoş yandıran
Bu xalqımın dili həm də sözü mənəm.
Qürur-arı, həm həyası göylər qədər
Bu millətin, özbəyimin qızı mənəm!

## Təhəccüd

Gecə. Çıraq - sönməmiş köz
Vücudun da olmaqda aram.
Yuxu dadlı açılanda göz,
İbadətə tələs, dilarəm.
Pıçıldayır sağ qulağına
Allah sevən fəriştələri*
Rəbbin ilə bağlanar bu an
Paklıq istər qəlb riştələri
Qoyan vaxtda səcdəyə başın,
Bütün qubar çəkilib gedər.
Töküləndə ovuca göz yaşın
Varlığından rahatlıq itər.
Sən bəxtlisən gətirsən taqət
Əriməmiş qəlbindən sücud**

Gələn sabaha deyib salavat
Oxuyub al gecə təhəccüd...

***   fəriştə - mələk**
*****sücud – ibadət zamanı üzü yerə sürtmək***

## Eşq

Ay eşq, cilvələnib gözüm önündə,
Yuxumu qaçırtdın bu gecə çağı.
Yuxuya girənlər coşar sonunda
Bədənim boyunca var oynamağı.

Yuyunub göz yaşım yağışlarında
Vurnuxub xəyallar eləyər xüruc.
Əsdirib, Odlayıb damarlarımda
Sonu yox istəklər başlayar vuruş

Baxışım görməyin sənintək yadı,
Bu cansız çiynimə nələr yüklədin?!
Ürək örtasına yönəldib yayı
Sevgi bulağımı qana bələdin!

Ey zalım...
Ey hissiz könlüm düşməni!
Görəsən sənmisən, ya mənəm tərsdə...
Tale türbəsinə gətirib bəxti
Bir gün biz səni də edərik xəstə.

Dünyanı hərlədən tək sən deyilsən,
Deyilsən insana şadlıq paylayan.
Mən yox! Sənin ilə dalaşan abad
Deyiləm qismətlə mən tək savaşan.

Ey eşq!..
Baxışların yadla üzbəüz,
Qorxunc yuxu sayaq hər xəyal anın.
Səninçün axtarıb köhnə, odlu söz
Yaxşımı, qəmlənib ah çəksə qadın?

## Həyat

Məndən çox şeyləri diləyən təksən,
Hikmət oxumağı öyrəndim səndən.
Ey həyat, badamtək güllənməkdəsən.
Yalan deməyi də öyrət mənə sən.

Şadman uçub görək, biz şux kəpənək,
Sevinci, kədəri etmə biganə.
Yer tutub köksümdə göy qurşağıtək,
Yaxşı, snaqların olsun pərvanə.

Nazik qanadımı sındırma fəqət,
Çiynin ilə əzib qoyma, sən, həyat!
Bəxtə həsrət qəlbə sən elə rəhm,
Yetər divanətək etməyim fəryad!

Acizəm sərsəri bəxtin yanında,
Yanıq hisslərimdən ürək necə kül?
Ruhum yanılantək bahar danında,
Gah canlı, gah solgum, sarı *saçı gül.*

Gəzişi, varlığa sakitcə baxıb,
Deyirəm yenə də ömür ver, Rəbbim.
Neçə il ötürdüm, hicab da taxıb,
Yaman nəzərlərdən qorunsun qəlbim.

Eh, indi yuxuya çevrilib ömür,
Dumanlar içində, görünməz ötmüş.
Vəslinə təşnəyəm, bəxti tutma sirr
Dönüb gəlməyin bəs, xatirəm – müdhiş.

Məndən çox şeyləri diləməkdəsən,
Səndən çox öyrəndim dastan yazmağı.
Ürəkdə nələri gülləndirənsən.
Gəl,  mənə də öyrət xoşbəxt olmağı

***

Səninlə ovunsam,
Səninlə gülsəm.
Səninlə ağlasam, bağrıma basıb.
Əzilən qəlbimi biz qucaqlasaq.
Qəmin yüklərini ağacdan asıb.

Gözlərinə baxsam
Aləm nurlansa,
Hisslər axınında sənsən mənimlə.
Nur saçan göylərin genliklərində
Arzu buludunda uçam səninlə.

Həyata beləsən, uşaqlıq olub
Laylalar qəlbimə dinclik bəxş edib
Uçan xalçalardan,  ürəkdən gülüb
Məni alıb çıxdın, zülmətdən keçib.
Əzizim, uşaqlığım...

***

Yenə yazmzğım gəlir
Adı yox, naməlun şəxs haqda nağıllar.
Darığıram,
Yayda darıxdığım kimi
Şiddətli  küləyin acısın
Yenə, yenə düşünürəm.
Gümanmı, ya inamlar haqda
Səslənməyən kövrəkliyi deyib
Yalvardım Allaha...
Şikayətlənmədim.
Heç haçan, indi
Yalnız məni bürüyüb tor, söz
Xəzan fəsli deyilsən ki, sən
Gözəl üzlü, sarısaçlı payız!
İnanıram
İnanmağım gəlir
Mövcud olan ilahi eşqə
Damarımda rəqs eləyər duyğu
Dərdli mahnıya.
Könül, səni hədiyyə edib
Sözlər sehrin etdimi cadu?
Sınaqlarda can dərdi cəkdi
Kədərsiz ahu...
Naməlum şəxs haqda nağıllar.
Qəlb dəftərim şeirlə dolubdu.
Ümid arzuya sarı yol alar...

## Gecə tanqosu

Qədəmlər dindi,
İzdihamın şövqünü duyub.
Hər tərəfdə pıçıldayıb duran
Aşiqlər sakitcə baxar, durub.
Bax, qasırğa qopdu və
Səma  üzündə parladı ulduz
Baş üstündə elədi cilvə.
Əlvida deyib çəkildi gündüz
Vəhmim gəldi gah sükunətin,
Qulağı dolub qaldı heyran.
Dan sonunda sığırçınları
Şad uşaqlar yamsılar bu an.
Varlıq tamam  sarındı
Gecənin qara çadrasına
Hisslər ilə həyəcan saldı
Gah girdi qəlb arasına
Ay  gizlənər şah gecədə elə
Sanki ruhlar qına giribdir.
Dinazavr dayanıb durantək
Ürəyimə qorxu axmaqdadı.
Qışqırıqlar gəlməkdə gizli
Yuxularımda həqiqət bozarar
Axşam çağı açılan üzgün.
Bəxtiqara namazgülülər
Yenə dönüb nifrətlə oxuyar
Bayılmağın naxoş sədası
Belə boşluqda sakit daranar
Tənha qızın gecə tahqosu

*******

1.

Çox boyük evlərə yox mənim meylim
Kiçik bir komaya sığmaqda başım.
Bir sakit yer, xəyal, ağ kağız, qələm,
Varlıyam ki, əgər bu olsa aşım.

2.

Şair qəlbin sevin, nüfuz qazanıb,
Qapqara kürsüdə susar faciə!
Siyasətçi kimi məclis dolanıb
Kimi hissiz kimi deməsin deyə!

3.

Düşüncəm oynaşıb gəzər çaparaq,
Başlayar ruhumun üsyankarlığı.
Yuxa ürəyimə dururam dayaq,
Gah da dərd bilərəm sənətkarlığı.

4.

Dövlətsiz yaşamaz əslində şair.
Az-maz pul taparsa, çıxarar kitab.
Kimsə çəpik çalar deyincə “qail!..”
Günəş başı üstə nur saçmış hesab.

5.

Köhnə zənginlərə bələdçi olub.
Tarix səltənətin birbəbir gəzək.
Könül dincliyindən dürr, gövhər alıb
Vurun ağ kağıza şeirlə bəzək.

6.

Qəlbi çilik-çilik etmək istəsən,
Saxta təbəssümlə əl uzatmaq bu.
Ey nadan, sinəmdə nə vaxtacan sən,
Mənim düşmənimin olursan dostu?

7.

Qəlbdəki girdablar - yol qocalığa,
Büzüşüb qalmaqda halsız vücudum.
Dostluğu, sevgini qoyub qırağa.
Yaşamaq lazımdır... dirəndim, duydum...

8.

Öz dilin nə  səslə yığar izdiham,
Millət, elatlara bölünmüş bu xalq!
Beş qitə sayağı səpələnibdir.
Ötən çaylar kimi axıb olar qərq.

Əzizlər, qardaşlar dağılıb yatsa.
Necə dözüb durar ürəyi sağlar?
Tacikcə, qırğızca, qazaxca dinib,
Gülərik, belədə Türküstan ağlar...

9.

Dosta naxələflər acıdı dünən,
Bu gün imarətim gülər var güman
Dəyərim, qiymətim pozulan gündən.
Hamı yığışaraq eləyər üsyan.

## Dəniz nəğməsi

Haray çəkir dəniz gurultusu.
Pıçıldayır şəfəqə baxıb.
Çalınmaqda payız tənburu,
Dalğa getdi nədən tez axıb?

Qumluqlara çırpılar arxayın.
Tullantıları səpər üstünə
Duyğu kimi köpüklədər ağın,
Aşiq edər qəfil özünə.

Gəmilərin qanadı yüksək,
Arzumtək vüqarlı güya.
Xəyalımda olunca sevincək,
Dəniz olub duyular dünya.

Dalğa olub coşdum hər səfər
Baxışın səslənər,  yaxşıca aldadar.
Gözlərinə höpub getsəm əgər.
Ey yar, məni gəzmədən axtar.

## Könül

Həyatımı mənaya bələyib,
Gəldin, canım, təbrik eləyib.
Bir qabara, qəfil yüksəlib,
Könül.
Könül...

Bəxtə cumdu münəvvər aləm.
Əllərimdə titrədi qələm.
Sənə qüvvət versin, səs, kölgəm,
Könül,
Könül...

Hər vücudda olasan nəfəs,
Hər insanın köksündə qəfəs.
Hər kimsəyə gərəkliyin bəs,
Könül,
Könül...

Sən gəldinsə, qürur asiman,
Cana hopmuş dəyərli dərman.
Həyatımda qalmadı duman
Könül,
Könül...

Dandan təzə, düm ağ libasım,
Mən xoşbəxtəm, yox etirazım
Razılığım sevgilimə lazım,
Könül,
Könül...

## Ümid

Sübh açılır!
Hər şey başqa cür,
Şükranlıqla dinir dil bu an.
İyirmi dörd saatı yuxuda
Dəyişib gedəntək hər zaman.

Hər nə var başlanar yenidən,
Əsnəklər, yorğunluq tez qaçar.
Ağ köynək geymmiştək sallanıb,
Pak ümid ürəyə nur saçar.

## Ömür görünüşü

Qəribə, büzüşmüş üzləri
Sığallayan kimidir qırışlar,
Amma halsız yanar gözləri
Nur olub könülə saçılar.

Coşqunluq giribdir qanıma,
Bir, iki, beş, altı, on, on bir!
Ruhumu qaytarıb canıma
Sağlıq deməkdə bu ömür!

## Həyat

Böyük qəzəbə çevrildi bu qəlb
Arzularını tulladı, atdı.
Məqsəd – ölü,
Zülmət qocalıqda,
Titrəyib, dayandı...
Bir-bir görünməkdə
Kiçik pəncərə arxasında.
Nədir o? Gizlin oxuyuram, maraqlı...
Yorğun baxışımda qalmaqda şəkil,
Üzü  çaşqın...

Yaxınlaşıb gələr bir səda,
Sükut içində ürək  dedi: “daaad!”
Ox gülümsəyib çıxar qaşımdan
Ümidli Həyat!

***

Müdhiş əhvalatlar ötər dəmbədəm,
Həyat və ölümə çağıran qürur
Alnını qaşıyıb atmaqda qədəm,
Əfsanə olantək duyular ömür.

Hər anı ah çəkib sancar köksünə
Həqiqət gözünə baxar hayqırıb
Laciverd səmalar səslər özünə
Mükəmməl ümidlər gələr, çağırıb.

Min il yaşamaz o, çinar ömrütək,
Bükülüb, sürünüb tapar sonluğu.
Yaşamaq həvəsi ötər qumrutək
Öz yoluna çəkər qismədtək duyğu!

Gedib mənzilini tapacaq axır,
Yüksək nöqtələrə atılan qədəm.
Uzaq ulduzlara baxsa ürəkli
Yeni ümid ilə yaşayar Adəm!

***

Uçum desəm, qanadımı sındırdılar.
Duyğular bol, eşqimdən də ayırdılar.

Qəlb sözümü oxumazlar, yazsam dolub,
Görünərəm kimlərəsə huşsuz olub.

Ətrafda dost qalmayıbmı, sükut çökdü,
Dostum desəm, gözüm yaşın o an tökdü.

Hiylə, sitəm həsrətlisi dost olarmı?
Sirləşməyə başdan-başa qəlb qonarmı?

Günahsız can qınandığın bildirmədi,
Ümidi var, o ümidin öldürmədi...

Vücuduma batıb tikan yaltaqlıqlar,
Həyatımı alt-üst edib şıltaqlıqlar.

Vur soylədim  arada da  yumruq sıxdım.
Deyimimdə nəki söz var deyib çıxdım.

Nifrət, ələm, get  kənara, düzə, çölə,
Axıdaram göz yaşımla səni gülə.

Ayırma, dur  iman adlı həmrazımdan,
Kövrəlmişəm, amma coşqun avazımdan.

Heyhat, günüm bəndələrə heç qalmasın,
Ağır anda başımıza qəm salmasın.

Pərvaz edək, dayandırma Yalqız quşu,
Şəfqətə yad, yanıb gedən könlü boşu.

İndi mərdə mərdcəsinə üz tutaram,
Sidqi vara inam ilə  ümidvaram.

Əzablardan zədələnən canım vardır,
Bu Vətənə daman damcı qanım vardır.

Çoxu oxşar olmaq istər bir insanam,
Qənaətdən, Sədaqətdən yoğrulanam.

Kim danışsa, günahımdan kənar oldum.
Ya da ölsəm. Yüksək qürur ilə öldüm.

Yaxşı, indi sındırsınlar qanadımı,
Haraylaram dərdim olan bayatımı.

Dostlarıma qalar sevgim, baltək sözüm,
Ucalıram, torpaq dadsa şəhla gözüm.

Vüsal və eşq harda deyə yola çıxdım,
Pərdə tutaan gözlərimlə yola baxdım.

Yıxan kəslər gülüb qulaq şəklədilər,
Çiyinlərə günahları yüklədilər.

Ötəri bir həvəslərə gömüldüm mən,
Elə bu an bədliklərə tutuldum mən

Oldu, yetər insan oğlu biqərardır
Dosta dosttək könül açan mütləq xardır.

Oyan könül, iman bizlə, bir yol alsaq,
Qədrimizi bilməz keylər, sağlam olsaq.

İndi Allah kəlməsini de dil,  hər an,
Axirətdə cavab verər hər bir insan.

Vicdanıyla güləşməkdə bəni-bəşər
Solmuş qəlblər indi bildim çox ömr edər.

Allah, Allah deyə hər gün tövbə etdim,
Bu dünyada bir qonağam,  indi bildim.

Bərkdən deyin, yazdığımda həqiqət var,
Ürəyimi əzib getmiş neçə biar.

Uçum desəm, qanadımı sındırdılar.
Duyğular bol, eşqimdən də ayırdılar.

*******

Gecədir, mən səndən qaçmam boş yerə.
Körpətək bağrında olaram aram
Astaca aldığım hər nəfəs içrə
Əcayib həyəcan səhər, həm axşam

Dan açar, çiynimdən ağır yük basar,
Özümü sanaram böyük adamtək.
Dağı qoparantək quruyar nitqim
Ürəyim ağlayar, imdad dilərək.

Yorulmuş canıma dərman verəsən,
Başıma xoş gələr yumşaq balışlar.
"Məntək dərdli qızı bunca sevəsən?"
Dilimdən nalələr uçmağa başlar.

Hissiyyət axımı vermir rahatlıq.
Gözəl kəpənəktək ay üzlü güya.
Yaxşı da deyil ki, ürəyim ölü.
Məntək bəxtsizi də əzizlər dünya.

Şirin xatirəyə eləyəsən dost.
Yalnız səndə gördüm, sənin özünü
Təkcə sən yalançı deyilsən əsla,
Açmırsan ağ hesab qara üzünü.

Xoş xərçəng bürcünün axşamı içrə,
Zülmət libasında nazlısan, gecə.
Mənim hisslərimi alçaltmadın heç,
Mənə mənliyimi göstərdin məncə

Ey gecə...

## Yağış sinfoniyası

Yağış döyəcləyir ağac yarpağın.
Damcıya çevrilsəm, xəyal edirəm.
Yuyub getməkdədir dünya eybini
Səssiz ötürürəm, gəzib gedirəm.

Çadır maniədən, yamanlıqıardan
Gizlənib ürəyim istəyi nədir.
Damcılar əksintək görünər, baxın
Nur kimi dolanıb kim gülümsəyir...

Başıma damcılar sağol yağışı.
Onların nəğməsin dinləmək
Bəxtdən xəbər ikən yuxu təbiri
Səs salıb budağa qonar quşlartək.

Hisslərdən özümü saxlayıb kənar,
Varlığa dikilib baxar gözlərim
Dedin göz yaşından yağış yaranar.
Hayqırıb yayılar səssiz sözlərim.
Duracaq.
Kətil boş,
Çadır nəm bu an!
Bu gün hər vaxtkından xoşbəxtəm, ana!

Təbiət aparır mənlə imtahan
Gecə göz süzdürür cansız, məstana...

Təzələnər ürək, axarlı varlıq,
Yağışlar – zamanın xoş cariyəsi.
Payızdan yadigar saxlayıb yarlıq
Səsləndi yağışın sinfoniyası...

## Zilaləyəm, Özbəkistandan

Başda cübbə, əynimdə atlaz,
Geri qalmadım zamandan.
Başqa yurdlar göstərsin həvəs.
Zilaləyəm – Özbəkistandan!..
Təriflərəm Vətəni hər an
Daşkənddir şərqin gül tacı.
İslam yurdu, sığaldan çıxan
Bu elin heç olmaz möhtacı
Sülhü qucan Vətəndir bişək,
Ayrılmayıb əsla imandan.
Şeirlər yazsam, bitirər çiçək,
Şairəyəm – Özbəkistandan!

Baburları yetirən ölkə
Millətləri birləşdirən ruh.
Biz çıxmışıq ən böyük yola
Qaytara bilməz xalqı güruh!
Köksümüzdə ucadır fəxr!
Səmərqəndlə Buxaramız var.
Yazsam, deyərəm odlu bir sətr,
Şeriyyətdən əskilməz ilqar.

Gözəl olur hər bir vahəsi.
Məhəmmədlər böyümüş bu yerdə
Müstəqil, azad hər bəndəsi,
Gecələri rahat, asudə.

Qaşqadərya, Surxanlarından
Dahiləri çıxıb, yetişib.
Mənimçün dua edən nənələr
Get dedilər, bəxtə yetişib.

Nənələrim verən tərbiyə, izzət,
Yaxşı əxlaq keçməkdə qandan...
Sözlərimdə var səmimiyyət,
Vətəndaşam – Özbəkistandan!

Şeirlər yazdım, fərəhlə, dolub,
Bu xalqımım əzizlisiyəm.
Şairləri, alimləri içrə,
Qələm yonan bir sonbeşiyəm

Oxşasınlar özgə dövlətlər.
Böyükləri əbədiyaşar, sonadək.
Sülh üçün deyilmiş çox səfər,
Dualar var – diləklərə bəzək

Özbək diyarı varmı, deyib,
Soruşun hər yetən candan.
Cürətli, kəsərli dilləri ilə,
Deyərlər: bizlər –
Özbəkistandan.

***Türkiyə, 2017-ci il***

## Dərdim

Neçə gündü qəlbdə aram yox.
Neçə gündü buxovda qəlbim.
Həqiqətlər açılar bunda.
Gah sevinsəm, gah artar dərdim.
Ah, şairlik yükü əzməkdə
Tənəzzüldə bezikmiş ilham
Ey, get, dedim, utanıb dedi:
-Mən - Allahdan səninçün ənam.
El içində dedi-qodu başlamış
Yəni şairdirmi bu üzsüz?..
Arxadan yağar parça-parça qarğış
Əzab görməkdəymiş "qaragöz".
Ədavətlər türfə rəng alar.
Vurnuxub gəzər məlamət daşı
Nə etməli, səhər mənə görə də
Oynasa "Rəisin" qaşı.
Qat kəsmiş kağızlar qoynumda.
Qələmimi dişləyib əsəbləşirəm
Sanki bütün ayıblar boynumda
Öz-özümdən yaman inciyirəm.
Siyasətə dönən istedad.
Özündən ayrılmaqtək, bəli.

Mən özümə şairəm deyə,
İndi deyin, nə etməli?
Yüksək təltif, saxta təbriklər.
Yumşaq stul, geniş bir bina,
Arzu, əzab, xəyaldan başqa,
Artırdığım nə oldu ki, Ana?!
Cəfəngiyata yox əsla meylim,
Gərək deyil mənə dəbdəbə.
Şair qəlbin anlasın aləm,
Ona düşmən – şöhrət, mərtəbə.
Qaynayar bulaqtək göz yaşı,
Ədəbiyyat şairin gorudu...
Fitnə-fəsad artdığı dəmdə,
Könüllərdə həsəd doğuldu.
Hamsından gedərəm tamam,
Zavallıdır şeirim, qismətim.
Sənət, səni atıb gedəsi olsam,
Səbr etməyə məni məcbur edun...
Uzaqlara hayqırtım gələr:
Nahaqlığı vurub yoldan aldırın.
Şairlərin mənsəbini deyil,
Şairlərin könlünü qaldırın!

Neçə gündü qəlbdə aram yox.
Neçə gündü buxovda qəlbim...

***

Yuxularıma girməkdədi dalğalar,
Sanki öpüşürdüm yağışlarla mən.
Sahil boyunca bürünüb gəzincə,
Dənizlə dərdləşdim ürəkdən.

Arzularım gizlin-gizlin baxar,
Xəzərin ağappaq gəmilərinə.
Damarlarımda qan coşub axar.
Baxdıqca baxıram gözəllərinə.

Şeir oxuyuram fərəhdən dolub.
Səsim yayılmaqda burda hər yana.
Bu qardaş insanlar önündə sakit
Üzümü tutmuşam Özbəkistana.

***Bakı, Azərbaycan 2019-cu il***

## Ağrı

Şeirlər ağlayar şair köksündə,
Bu ağrıya göstərilməz bəhanə
Şeirim, mən səni övladım desəm
Saxta sözün iflic, enilmiş yenə.
Sözlər ağlar, şairin dili
Acı dadan kimi olar cansız ah
Məhim qəlbimdəki kömürləri ört
Elə bir dərd ver mənə ay Allah!..
Axşam-səhər söhbətləşər
Gecə ququ quşları. Qığıldar.
Nə bir məna, nə odlu sətirlər.
Yazılacaq saxta”tullantılar”.
Könül razı, xoşhal olubdur
Həyəcanları, ədəb ərkanı.
Oxucular şeir oxuyub, səslənər,
Lakin yada salmaz Quranı.
Ədəbiyyat ağlar köksümdə
Ulduzları yatar buxovda.

Səma düşüb gələr üstümə.
Abdullalar gəzən gülşəndə
Əşyalarıma tam sevgim səpilib
Qaldırıram şeirimin dəyərini
Zülmət içində qəmgin susan
Gördüm ustad Rauf Parfini.
Yox indi mən edə bilmirəm tab
Şairlərdən qaçmağımdı gerisi.
Sürünməkdə gecə özgə çür,
İndi mənimlə ilham pərisi...
Çarpışmada – üsyankar ruhum,
Ədəbiyyat dinməyən, cəbirtəb,
Şeir cingildər dəqiqə sayı.
Sancı tutan anadək, ya Rəbb!..
Zülmət içində gözüm qamaşar
Bir baxış ki... eləyər təqib
Ağ divara yazmaqdadı nəsə
Şövkət Rəhman sözsüz alışıb
Övladlar da dəyişər görünüşün,
Əsr həmin, tarix gülümsər...
Narahat ruh üsyanda hər gün...
Möhtəşəm bir dərdlər böyüyər.
Hər dəqiqə doğular şair
Hər anda qəlb sözü deyilər
Şair şair dağın dağıdar,
Və daş atıb birdən hayqırar.
Belədir, bu qədər açıqdı dünya
Pis hisslər hardasa buzlayar.
Ağlım deyir: kənar gəz şeirdən
Qəlbim isə sözlər axtarar...
Mənə qismət oldu şairlik,
Vücudumu örtər dəmbədən.

Dahi sayıb özümü özüm,
Misra yazdım, məzmunlu, möhtəşəm!..
Ədəbiyyat, bağrın gen olduqca,
Zaval tapmaz mərhəmətlərin,
Gündən-günə  doğulan, bilsən
Lalə kimi Məhəmmədlərin...
Şeirlər ağlar şair köksündə,
Saxtalığa getməz, son məqam
Tənqidlərə çəp  baxan şair,
Matəm içində axtarar bayram...

***

Yarım desən, bir yadlıq çıxar,
Canım desən, sanki cansıztək.
Kimlər üçün  qəribə duyular,
Köynəyi sevilər -  ensiztək...
Bütün halət sənə əyandır,
Gözlərini edər şama yad.
Həyatını sezməzsən hətta,
Vardır onda hər cür istedad!

Ağaclara  söykənsən məhzun,
O görünər gözünə tənha.
Gedər, mənzil görünər uzun.
Hə deyəndə  olacaq peyda.
Küsmələri bir yana atıb,
O haqda sən edəsən xəyal.
Eh, namərdi bunca oxşayıb,
Sən öz gəncliyini qocaltdın, əyal!
Böyümədin, böyüdü hisslər,
Önündə əyildi biganə Adəm.
Hər dəfəki kimi” O -  yaxşı”- deyə,
Gülümsəyən kimi atırsan qədəm.

Təkcə o – qəlbinə hakim,
Təkcə o – gözlərinin önündə.
Təkcə  hər addımın varlıq,
Nur ola bilməz zülmət gecəndə.

Riya ilə sevişdin ilbəil,
Riya ilə görüşdün, ey əl.
Xoşbəxtəm, deyib dinmədi dil,
Bəxtsizəm deyib, dinc olmaz könül.

Əslində sən - ən xoşbəxt qadın,
Sədaqətli sevgi dilbəri.
O, soraqlaşıb gələcək bir gün,
Cənnətdən gələr xəbəri.

*******

Ağ at,
Ağ at,
Ağ at.
Mənə yetişəndə ayağın axsadı
Tale dəyişdimi mənzili o vaxt?
Söylə, sənə minən o hansı... Aydı?

Ağ at,
Ağ at.
Ağ at...
Mən səni gözlədim necə, bilmədin
Əcəb aldadanmış bu nağıl həyat,
Vədəndə durmadın, bir yol durmadın.

Ağ at,
Ağ at,
Ağ at...
Bəlkə mənim könlüm qapqara rəngdə
Bəlkə ay parçası məndən də böyük.
Qəlbim həlak oldu qısqanma cəngdə.

Gəlmədin,
Darıxdım.
Dünya rütubət.
Yağış... Lilə batıb qaldınmı, bilməm.

Bildiyim – köksümdə yanmaqda nifrət,
Çiynimdə namusdan dopdolu yüklər...

Ağ at,
Ağ at,
Ağ at...
Buxartək boşluğa uçdun deyəsən,
Qalıe boğazımda ah ilə fəryad,
Gözləmək bəxtindən ah, ayrıyam mən

***

Modernə vurğunsuzmu,
Xəyalınız harada gəzər?
Lirik havanı pay almaz şair
Qəlb nidasın bəs haradan sezər?!
Ruhla bədən qəlblə tutuşar,
Biri ölsə, biri diritək.
Bu belədir, ey şair qardaş,
Sözü yaymaq neçün diritək?
Qafiyəyə oturmaz misra

Qaş-gözündən ayrıtək o üz.
Boranlarda yayılıb gedən
Yığılıb qalar yalançı bir söz!..
Böyük söz soylədim deyib dirənər
Minbərdəki tək hayqırıb qalar
Mənim qəlbim dərdləri çəkər
“Leqo” kimi sözdən göz dolar...
Pramida düzəltmə sözlər.
Ruhu salar bəzən qınağa.
Lirik mahnını dinlədiyimdə
Çəkilib getməyim gəlir uzağa
Şeytanlıq hər sətirə baxıb,
Ürəyimi pələng gəmirər.
Modernmi, klassikmi, yaxud?..
Allahı mədh eləsək necədir
Dəyişməkdə ağıl və duyğu,
Dəyişməkdə yönəliş, üslub.
Hansı yöntəmdə yazsa da o,
Şairliyi etməkdə arzu!
Ağ vərəq hamıya yetər,
Dərd doğulsun, yeriyib addasın.
Hansı mövzuda yazılsa da şeir.
Minbər qucub zinhar hayqırmasın.

***

33 il əvvəl ağlamaqdan qızaran
Bir ət idim mən
Yaradan Allahın mərhəmətilə
Bir bütöv insan döndüm indi mən
Budur, bax ey dostum
Bədənim, canım sağlam
Özüm əminliklə yeriyib gəldim

33 ili alıb gələn canıma
Etməyib xəyanət, qoruyub gəldim
əmanətimi...
33 illik ömr
Kiminçünsə az,
Kiminçünsə çox.
Mənimçün yetərli, şükr, ey Allah
Bu gün sən yenidən böyütdün məni,
Əlhəmdülillah...

Hələ çox güləşlər arxasından
Basıb keçəgək yol...
Sınaq, təhlükə!..
Tək özüm bu yolu getsəm də pisdir.
Daşıma buzluğa.
Dəyişdirmə,
Qəlb qanamasın.
Tikanlardan didilməsin ürək,
Rəvanlıq gərək, parlaqlıq gərək.

Sonda əmanət canı
daha 33 il qorumam gərək
Ya Allah...

Anam darıxıb gözləyib,
Səy göstərib doğub.
Ağır əzab ilə bəxş edib həyat.
Sən sevməsən doğulmazdım,
Səndədir nicat
Mən gəldim dünyaya qonur saç ilə,
Qara qaş ilə.
Hüsnümə həsr etdi qırx min söz mələk.

Bəlkə qəsidə...
Nə olsa da xoşbəxt gündü bu.
33 yaşımı gözləyən adamlar.
Yaşayıram bu gün.
Əlhəmdülillah...

***

Xəstələnməyin,
Özünüzü, zavallı, izdiham.
Ürəkləri qoruyun qismət topundan
Büzüşdürən, üşüdən,
Qırovlu gecədən
Sağlığınız qaçarsa, çıxmazsız sağ.
Əsəb zingildəməsin,
Və dirənməsin boğazınızda dərdlər,
Ahu-vay...

Əsarətlər pisdir,
Hamsı dəhşətli.
Neştərin sancaraq təqdir ovxalar,
Həb çeynəyib verər
Gecə adlı bədheybət.
Çığırıb gedər varlıq, əsər dodaqlar...
Özünüzü qoruyun!
Siz xəstələnməyin!
Mənim peşmanlığım yetər aləmə.
Arzu etməyin sonra
Pulu qucaqlayıb
Çevrilməyin sağlam adama.
Siz xəstə olmayın

Yalvarıb deyirəm
Qoruyun özünüzü
Başa isti geyim, ayağa corab

Xoşüz görünməkdən vaz keçin bir yol,
Yaxşı, geyinməyin
Ayıtək qalın.
Çünki sonuncusu sizədir düşmən.
Sizə rəhm etməz bu dünya bir az
Xilas etməz sizi hətta elm, fənd
Sakit dünyaiçrə olmayın nasaz.

Zülmət günlər keçib açanda danım...
Sükunət içində böyüyər ağlım
Səbrimə söykənib yaşam son anım
Ümidimdən kənar etmə, Allahım!

Özün qoru...

***

Mən bir vaxtlar arzu edərdim,
Fərəhli keçərdi günlərim.
Gözümün önündə gülümsəyib,
Əzizləyib deyərdin: Dilbərim...

Məftun olurdum sözlərinə,
Sevginə darıxdım, darıxdım...
Baxmayanda gözlərinə,
Ağrındım, yarım, ağrındım.

Möcüzə gözlərəm hər axşam,
İlahi bir nura göz dikib,
Özümü mən tamam itirdim
Bu tale, bu eşqə isinib.

Çox şadam, sübh açmaz bağlarda.
Quşlar da sayrışmaz, sükunət
Göz diksəm zirvəli dağlara.
Gəzişər qırılmış ruhiyyət.

Göylərin tağına baxdıqca.
Axtarram min səbəb, işarə.
Görməyib bu dunya, vay-veyla
Mənimtək dərmansız, biçarə.

Hər insan dərk edər xətasın
Sən özün dərdimi bilərsən.
Dinləsəm quşların avazın
Bilirəm, sən yetib gələrsən.

Hər şeyə razıyam, sən gəlsən.
Haradan başlanar saf həyat.
Qəlbimdə fəryadlar dinəntək
Alışıb canlanar xoş büsat.

Sevdiyim bir vaxtda səbrimə,
Hazırda, xoş olar, çevir üz...
Düzəlib, nöqsansız gələrəm,
Qarşında dayanar sağlam qız.

## Rəsulullah

Dünyasından doyduğum zaman,
Ürəyimdə qalanda bəd an
Halım düşkün olanda yaman,
İman bilə oxşadı Allah,
Sənə görə, ya Rəsulullah!

Aləmlərin böyük Rəsulu,
Cənnətə yön döndərər yolu.
Allahımın sevimli qulu
İslam qəlbdə, qaldırdı bayraq
Quran əldə, ya Rəsulallah!

Səadətə qoşub ümməti.
Haram bilib pıç-pıç, qiybəti.
Dəf edənsən cox müsibəti,
Anlamaz bəzən Səni gümrah,
Əfv elə, ya Rəsulullah!

Ümmətin başlı-başınca
Riyakarlar çoxaldı bunca.
Sənsiz insan alçaq olunca
Qayıtmazsan nə qədər çəksəm ah,
Darıxdım ki, ya Rəsulallah!

Bəla verdi cahil, gerilər
Ruhu ölmüş, cismi dirilər.
Canlanmayan qəlbi kiçilər
Özgəsinə quyu qazar, ah,
Sən qalibsən, ya Rəsulallah!

İman dolsun mənim qəlbimə,
Mükafat var, bildim səbrimə.
Öləndə nur ələnsin qəbrimə.
Quran etdi bizi islamdan agah,
Sən səbəbkarsan, ya Rəsulullah!

Gözümdə yaş, başım səcdədə,
Gecə-gündüz oldum tövbədə.
İki gözüm ağlar Kəbədə
Zalım hisslər olsunlar həlak,
Dua edin, ya Rəsulullah!

## Ağladan eşq

Stolumun üstündə bitməmiş şeirlər
Səpilib yatmaqda duyğular kimi.
Sabah kimə isə onlar xoş gələr.
Və bir gün kimlərsə onları yandırar
Ürəyimi yandıran kimi nifrət.
Siyirtməni çəkirəm,
Çıxır dəftərlər.
İçində sən varsan mən varam
Həbsdəki məhəbbət yaşar onda.

Ağrıları bitirməyə yetişmədim
Təbəssümün var.
Sevdalı baxışın vardır,
O məndən yadigardır.

Əllərimə baxıram.
Ovucum barmaqlarımı tutur güya
Qınamaqda həya.
Dodaqların...
Ah, ürəyimin alovlarını
Gözün yağışları söndürə bilmədi deyə qorxdum
Xəstəxana –

Kiminçünsə həyatın başlanması,
Kimisə son mənzilə yola salan məkan
Mənim üçün mənə yaxınlığını anladan
Daş-divardı bu.

Qarğalar qarıldayır,
Başım üstündə qəh-qəhə çəkir.
Sadəlikdən, ağılsızlıqdan sakitləşəntək
Mən də oyuracaqda oturub
Onlarla bərabər qəhqəhə çəkirəm
Ötüb-keçən baxıb deyinir
Ağaclar yarpağını tökür
Gərəksiz yarpaqlarını
Ayaqlar altına dəyərim tökülüb qalan kimi.

Yerə diz çökürəm
Onları əlimə alıram.
Bağrıma basıram.
Qədim nəğmələri dinləyəntək oluram.

Ağacı təpikləmək istəyirəm,
Sonda ələmlərdən qurtulmağım bu!

Ah...
Olmadı... gedirəm
Daş- divarlardan aralanıb,
Evimin qapısını açıram
Məni yenə kağız-qələm gözləyib durur,

Yaz deyir.
Yazmıram deyib, alıb, atıram qələmi

Pəncərəmdən küləklər girib gələr
Xatirə dəftərin açıb vərəqlərə
Gözümü yandırar köhnə şeirlər

Orda sən varsan, mən varam
Orda təbəssüm var.
Hə, hə, yalan təbəssüm...

Şeir yazdım sonuncu vərəqə
Hamısı sonuncu.
Hamısı...

## Leyli ürək

Hələ mənzillər çox,
Uzaqdır yollar.
Uğur qapısından gizlincə bir gün
Yağıb başımızdan keçsə dolular
Qələbə səsini qaldırar bir gün!
Ey gözəl sevgimi övkələyən dərd,
Sən hələ bilmirsən duyğu gücünü
Ah, dinclik saçından hələ tutmayıb
Zəncirlənmiş ürək alar ucunu
Heyhat əminlikdə günlər gəlməkdə
Ürəyim can atar yenə günəşə
De, niyə kövrəlmək,
De niyə hicran.
Gözlərim sərhədin doldurar yaşa!
Duyğular,
Duyğular
Gözəl və nadir...

Baxanda özünü zinhar istəməz
Eh, sevgi müəzzəm, eyləyər həlim
Xəyallar o haqda tökər min təxmin
Səbir sınanılıb, tab edər vücud,
Vicdana həvalə eləyək, bəli.
Diriykən dünyada biz varıq, mövcud,
Həyatda özüməm ən xoşbəxt Leyli.
Ağlama, ürək!..

***

Təqvimdəki qırmızı yazılar
Səssiz, asta  getməkdə qərib.
Eh, taleyln qəmgin yazısı
Gedən bəxti hara döndərib?
Qaldı bu gün həmin ömrümtək
Yeni ilə sanılı günlər.
Köksümdə aciz qumruntək
Üsyanlarım çıxarar ünlər
Yolkaların oyuncağıtək
Qəşəng libas geyinib varlıq!
Gur  meydanın gen qucağıtək
Səslənən ürəyim. Soyuq...
Əl yelləyir səma  bağrında
Göz dikirəm sönən ulduza.
Qarlı gündə, yarın yanında
Dönürəm mən də Qar qıza...
Qar qıza...

***

Uzun bir yol
Tökülmüştək un.
Tökülmüştək bakirə hisslər
Arçanlıqlar arasında yüz cürə
Qalıb gedən ayaqlardan izlər.
Qar yağmaqda çıxmırsan gəzməyə,
Bağ içində mən avarayam güya
Bığında gülməkdə ətrlər
Yaşmağımda yerləşib dünya!
Arçanları ovcumda sıxıb
Qarla dərdləşirəm hər dəfə
Axşama yetib, yaş kimi axıb.
Gedənlərtək duyulur şəhər.
Ürəyimə girib gedər nur,
Bir adsız hiss verməkdə bilgi.
Vay, ayrıldığımız on beş il olur,
Məgrur baxıb, gəldinmi, sevgi?!.

## Könül səhifəsi

***

Xəyalımda Aya çıxmağı arzu edərdim.
Ona yaxın qaldığımı
Anlatmaqda ürəyimdəki buzlaqlar...

***

Ustad deyə mənə üz tutanlar var idi.
Öyrətsəm də öyrənməmişəm
Haradan həyata, şagirdliyə düşdüm.

***

Dünyaya bütün bəlaları yayıbdı insan.
Ovucunda tutunca yuyar yağış ləkələrini
Həngamələr durquzub qarışdılar torpağa
Gözləri gözləməkdədir dinc...

***

Çox xəyala dalıram,
Çox yatıram bəzən də
Sübhdə yenə sıraya düzürəm
Yuxudakı xətaları...

***

Sənin adını on beş il təkrarladım
Yada sala bilmirəm bu gün adımı
Nə idi?
-Aha, Ürəksiz?..

***

Özümə nifrət etməyə başlayandan,
Güzgüyə baxmam gərək olmadı.
Gecə öz əksimi görüb durdum,
Yağış damcılarında.
Dəhşət...

***

Sevgilin kim deyə soruşur hər gün
Biclik ilə bəla  girir könülə.
Özümü bərabər tuturam bu gün.
Bülbülü yox olmuş o qızılgülə.

***

Sən getdin,
Mən getdim.
Dünya dəyişir.
Gələcək dəyişir
Zaman dəyişir
Mən baxıram,
Ürək dəyişmədi
İtkilər əbədidir,
Sənin xəyalınla yaşayan
Bir qıza rəhm elə.

***

Həyatımda məhəbbətin yeri olduqca
böyük oldu.
Mən  onda özümün qəlbimi kəşf etdim
Fəlsəfə yaratdım,
Hekayə oldu, şeir oldu.
Lakin onu qaytara bilmədim.

***

Qapı döyüldü.
-Ura, o gəldi deyə bərəldi göz.
Cırıltı... qapı açıldı
Qız huşsuz yıxıldı
Görüş qiyamətə qaldı.
Əcəl onun görünüşündə idi...

***

Məndən zədə alıb bütün varlıq dinc
Gecə gedişindən mürgülər tilsim.
Kövrək ürəyimə girib. Olan kim?
Kim... kim?

***

Evimin içində dolanar bir dərd,
Getməz əsla, qovsam da hərçənd
Bir zalım hiss verər mənə nəsihət

Sus... sus...

Kirpyimdə donan yaş kimi olar
Yiyəsini axtarar vüsal.
Salxım söyüd yuxularımda ağlar
Zar-zar...

Qəlb dözümün üzüb gedən eşq,
Müvəqqəti duyğu görən hiss.
Uğursuzluq sıxmaqda yumruq
Səssiz.. səssiz...

Deyin nə vaxt ağrılar qaçılar?
Gənc olsa da bu könül qocalar
Səni səsləyən ürəyim ağrıyar,
Sim... sim...

## Aldadın...

***(1 aprel şeiri)***

Bu gün – zarafat günü, yalanlar günü,
Bu gün məni sevməyin, aldadın doyunca
Bu gün düz sözlərin tutmaz ki tini
Bu gün sizdən razılığım ölüncə
Aldadın məni, aldadın

Qulaqlar vərdiş etsin.
Yalan şərhinizçün darıxıb qaldım.
Yaxşı, yalan olsun gəlməyiniz də
Bu gün yalanların dəyərin bildim
Zarafat eləyin, kiçiyim deyin,
Zarafat eləyin sevirəm deyə...
İndi ağrınmayın, səslənməkdəyəm,
On il yalanınız oldu hədiyyə
Köksündə həsrətlər bürünüb gəzər.
Ağır yükümü də götürər ki yer
Haçan ürəyimi gözünüz görər,
Haçan yenə dönüb gələcək aprel?
Aldat yarım, aldat oldum intizar,
Yalanlar da bunca olarmı şirin.
Bahar kefimə də gətirdi elə
Ön ilki aprelin şirin xatirin,
Yalan sevginizçan darıxıb qaldım
Parıldayan baxış
Getmir, baxırdı
Yalan söhbətləri bilib dursam da
Hər yalan sözünüz məni yaxardı
Yalan bir göründü sevgimiz ilə
Yalan boya yetdi,  kamillik yaşda.
Apral – bol zarafat, yalanlar günü.
Amma aldanmayın şaxtalı qışda...

## Niyə?..

Gecə, Oyaq, Ürək üzgün, dolanıram,
Yuxumdan da bəzən qəfil oyanıram.
Tam qurumuş yarpaq kimi tez yanıram.
Niyə məni şair kimi doğdun, ana?

Hər bir sözü ələ alsam olur əsər,
Füzuliyə meyl salıb  yazdım qəzəl.
Tənqidçilər deyir:”Fərqli sözlər yazar”,
Niyə məni şair kimi doğdun, ana?

Baxışımda əzabların izi qatıb,
Məlamətin xəncərləri qəlbə batıb
Ağ kağız da sirdaş deyil, sirrim satıb
Niyə məni şair kimi doğdun, ana?

Söz dərdindən gecə oyaq yanıb dindim
Ürəyimi bulaqlara qoşub endim,
Qurtar məni bu əzabdan, təzə andım,
Niyə məni şair kimi doğdun, ana?

Tab gətirib bu dərdləri su tək içək?
Sözlər axıb bəs dilimə köçsə, neynək?
Yar şərhimi oxumasa, kimə deyək?
Niyə məni şair kimi doğdun, ana?

Çox gözlədim sükunətin daldasını
Oyaq keçdim, axtarın söz sırasını.
Kim yamasın bitməz ürək yarasını?
Niyə məni şair kimi doğdun, ana?

Əyri yollar dolaşaraq ruhu əzər,
Şairlərin ömrü qısa, könlüm sezər.
Ətrafımda ölüm adlı kölgə gəzər,
Niyə məni şair kimi doğdun, ana?

Suallar cavab gəzib etsəm kitab,
Nadir sözlər ağlı alıb qoyar o tab,
Qəlb  şeir yaz deyərək eyləyir xitab,
Niyə məni şair kimi doğdun, ana?

Böyüklərtək gah ağlımı fırlatmalıyam,
Oxumuştək ağ-qaranı fərq qoymalıyam.
Hər sətrimdə təşbehlərə yer aımalıyam,
Niyə məni şair kimi doğdun, ana?

Ləzzət idi, eh, uşaqlıq məskənləri,
Doğru çıxdı gah da nənəm deyənləri
Batıb gedər sınaqların tikanları,
Niyə məni şair kimi doğdun, ana?

Mən vəfanı səsləyərdim, cəbrin daddım.
Sübhü sevib. Üfüqlərdə sakit batdım,
Hisslərimi ağ kağıza asan satdım,
Niyə məni şair kimi doğdun, ana?

Sədaqətin çöhrəsində məyusluq var,
Can qocalıb, saçlarıma düşübdü qar.
Coşub izhar yazsam çətin, oxumaz yar,
Niyə məni şair kimi doğdun, ana?
mrün özü tamam əsər oldu, ana,

Tale mənim üstümdə boz küldü, ana.
Sevgim - çiçək, yadlar onu yoldu, ana
Niyə məni şair kimi doğdun, ana?

Şeir yazdım, niyə ağlar yığdın, ana?..

# Ey dost

1.

Xoş niyyətlər etmə iltimas,
Hüşum uçar iltifatlardan.
Yalanını vicdanından as.
Yoruldum bu etiraflardan.
Azadlığı  bəyənər ürək.
Ah, uçmaq istəyər yüksəyə,
Böyüklüyə olmam davakar
Böyük eşqi salaq ürəyə.

2.

Gəl, ey dostum, şeirlə gəzib
Səmimilik suyunu səpələ
İlahi bəxt tamını sezib
Hissdən nəfəs al, qan, dinlə.
Yalanlarla dolan kimidir.
Bu sonsuz, sərhədsiz aləm
Lakin iti görməyim vardır.
Bu - əlimdə tutduğum qələm!

3.

Varlığını məhv etsən qorxu,
Vurub alacaq mütləq vüçudu.
Qorxdum, ifa etmərəm deyib
Gecə oyaq,  vah, dua etdiyi bu.
Sən afərin, yağdırırsan, hə
Tərifin də olarmış fərqi

Heç nəyim yox bu fəxrə layiq,
Sözüm doğru, hə, Allah haqqı...

4.

Müsabiqə etməkdə davam.
Bu həyatın yumşaq ovcunda
Bir iş görsə deyərlər avam
Anlamayandır yəqin bu an
Ey dost, sönməz bəlkə çırağın
Doğruçu məşəlin yandır sən.
Dinc olardı onda qulağın,
Səmimiyyət qapısın döysən.

5.

Alqışlardan yoruldum düzü
Hiylə - məni idarə edir o da.
Səs qaldırma axirət günü
Təyin bəs, bəd saysa Xuda.
Saxta dünya ədavəti yox
Saxta dostlar yıxıdar qəlbi
Yox, mehrinə zərrə yox güman
Dəyişmərəm sənə olan eyibi.

6.

Ah bu qədər ürək qorxuda,
Kağızlar aldım yiyə olaraq
Qələmlər ki, gəmrildi gündə
Dişləyəndə qanayar dodaq.
Əsəb gərgin, şairlik yükü
Bilsən əgər, ən ağır yükdür.

Şairliktək qəmxanə, qəlbsıxan,
Şairlərtək divanə yoxdur.

7.

İnanmazsan, hə, inanmazsan.
Ləzzətini dadmazsan sözün.
Şeir oxuyursan, çalxanaraq şən,
Oynadınca söz üstündə gözün.
Afərinlər olmasa əgər,
Yazardım bundan da uca.
Saxta lütfdən etmədim həzər,
Saxtalaşdı qafiyə, heca.

8.

Gəl, başdan başlayaq hər şeyi,
Nə ki dərd var, eləyək hakim.
Qismət sıraya düzər dərdini
Həyat sonu – ustaddı dərdim.
Ey dostum, bax... doğular yeni
Böyüklüyə çatmaz davakar
İlham hədiyyə eləyər sözü
Demə ki, ilham alar, ya satar.

9.

Sənə xoş gələr bəlkə əsərim,
Nəzər yetirsən bəlkə elədir...
Artırasan alqışları lakin,
Əl çalmağın sanki sillədir
Yalan, doğru qarışıb getdi.
İlhamım da səssiz aldanar
Böyük söz axtarışında
(Böyüklüyə özüm davakar).

10.

Hə, beləcə otməkdə ömür
Dühanı da yetişdirir analar.
Dünyanın hər duracağına
Tale qurub, salıb binalar.
Birisində yaşayır düzlük,
Birisində yaşayır güman.
Hamısını səsləndir, ey dost
Yazılan əsl şeirlərim yalan
Hamısı yalan, yalandır, yalan...

***

Gecə və mən
İkimizdən xoşbəxt yox güya.
Mən və o,
Haqq gözündən edirik həya.
Milyon ürək döyünər, vurar,
Basıb gedər qara qasırğalar,
Hüşsuzlaşmış yarasalar,
Zülmət içində sırtıqlıq alar.
Gecə və mən...
Yalqız qaldıq döşündə dağın.
Donuq Ayın nuru içində
Küləklər dolaşar yorğun.
Sübh geyincə incə libasın,
Ara verər ulduz özünə.
Günəş nur saçınca aləmə,
Baxammarıq onun gözünə.
Ay oxuyar əsrin hekayəsin
Zülmətdə də o çox qəşəng
Dinlədikcə ququnun səsin

Çəyirtgə səsi verər ahəng
Gecə və mən...
Biri layla deyib ovudar.
Hamısına tabeyəm tamam.
Ömrümü səsləyib qocaldar
Ehtiraslı gecə çəkilib hələ,
Günəş çıxdı fırlanıb məğrur
Yuxuda keçən ömrlər üzrə
Gəlməkdədir mənə təxəyyül...

## Yeni gün

Bulud ərşdə süzər ahəstə
Azan səslənər, saat zəng çalar.
Budur, tələsməkdə ibadətə -
Dan üzünə ağ örpək salar

Damcıladı hüzur yağışı,
Yer ovcundan alınca bəhrə.
Bulud təslim oldu, nə yaxşı
Günəşdə də açıldı çöhrə.

Qəlb  içində parladı ümid,
Məsud günə yetdim, ay Allah.
Oyandı qəlb, sən özün şahid,
Körpətək - bu danda yox günah.

***

Yuxusuz gecədən soruşdum səni,
Gəlmədin, qəlb susub yatmaqda bihal
Ay ilə dərdləşib yatıram indi
Verir çox sual...

Ah, hanı mən deyən qorxmayan o can,
Ah, hanı eşq dolu o təmiz ürək?
Sevgi təşnəsidir axı hər insan,
Qəlb vurur ürkək...

Alça dodaqlarda yox busə tamı,
Yox inam, hissiyyat əzabdadır bəxt!
Ay ötər, il ötər, qəlb - dolmuş gəmi,
Yox sevməyə vaxt...

## Paklanma

***"Səbrimin sınağı – qiyamətəcən..."***
***Hilalə Banu***

Ruhumda rahatlıq, yenilik duydum.
Hava tamam azad, nəfəsim təzə.
Ey həyat, mən səni nə qədər sevdim,
Könül hayqırtısı dönür avaza.
Dümənki günümdən bu gün ulu, şən
Duyğumun gücündən hürkər ayrılıq,
Nüfuzum artmaqda, canlandı bədən!..
Ömrüm gözləməsin, gəlsin "qayıdarıq".
Cilvələnib durar röyalar, yox şəkk
Özünə səsləyər başqa aləmlər.
Mənim ürəyimdən yer ala gərək
Ruhlarla dilləşən müti adamlar
Həyat – böyük gəmi!
Ömür – axar su...
Haraya aparar sahiblərini.
Qınayar bölünsəm, məni qınayan

Ruhu soyub almış qabıqlarını
Allah, sənə sarı yola çıxanam
Qəlbimi nurlu et ziyarətəcən
Yetişək hüsnünə nurlu üz ilə
Səbrimin sınağı – qiyamətəcən...

## Portret

Ağappaq divartək saçları ağ bəy,
Günəştək mülayim baxar bir xanım.
Dayanıb duracaq o yerə getsəm.
Bu yerə getsəm
Qara göz ilə...
Gah təzim edərəm qarşısında dinc,
Gah sükut saxlaram
Deyərəm surə...
Yenə xatirələr arxamdan qovar
Saat əqrəbinə həmahəng sükut.
Biri çıqqıldayır,
Biri sürünür.
Biri agahlığa səsləyər məni.
O biri xəyala daldırar fəqət.
Yatmamış önümdə görürəm ruhu
Yaxun röyalara edərəm səfər
Düm ağ divarlara ağıl dırmaşıb
Deyər: onlar hələ mayallaq aşan,
Yaşayıb yox olan insan kölgəsi.

***

Bu gün o gələcək.
Tənha qalmış xiyabandakı
Oturacaqlar yiyəsin tapar,
Quşlar həvəsə gələr hətta
Ciçkildəyər həsəd aparıb...
Bəlkə qarğayıb səslənər,
Bəlkə bəxt dilər!..

Ürək isə etinasız
Ona baxan baxışlara olar məftun
Tütün tüstüsünü
Udum-udum udub durar.
Özünü kişitək tutan cavan
Həyəcanlı titrəyişlərini
Bərkidər ovcuyla qəlbin ovcuna
Barmaqlar birləşər,
Çiyin ağırlaşar
Yuxulayıb yatar, gözün yumunca
Bəxt mələkəsi...

Bugündən  hər nə var ötər başqa cür...

Olar ayrılıqlar
Gedilər iki tərəfə yol,
Biri o yanadır, biri bu yana.
Özlərin atarlar həsrət bağrına,
Gün ötər, qara geyinər gecə!

Zəng cingildəyər
Sevgi yatmaqdadı,
Qəlb döyünməkdə...
Mələk bəxtə sarı atmaqda addım...
Dan.
Məsum çöhrəsində fərəh parıldar,

Günəşə tutmaqda güllər dodağın
Yenə boş skamya yiyəsin tapar,
Sirlərin açar...
O və qız!
Bir dilək, arzusun qucaqlayaraq
Ağac kölgəsində olmaqdadır məst...

Salam, ey vəfalı,
Salam, Məhəbbət!..

## Payızda dağılan xəyal

1.

Dağlıan cığırdan incik keçirəm,
Səpilib yatantək ən yeni bəxtlər.
Payız havasında oyuna düşüb
Ağaclar elə bil yallı gedirlər.
Son həddə yetişər pıçıltıları.
Yarpaqlar ayaqdan asılıb qalar.
Arxamca qaçanda çaş qalmış külək
Azıb qucağıma ümidin salar.

2.

Sübhəcən kəsmədi yağışın bəhsi
Yer ilə baş-başa gəldi damcılar.
Ürəyim, hə, ürək dolaraq daşdı,
Damcılar yer tapmaz, məni qamçılar.
Görünməz olubdur Günəş cilvəsi.
Ona  pəncərədən gülrəng pərdə as.
Qara halətinə öyrənmiş gecə
Ölən məhəbbətə tutmaqdadır yas.

3.

Kövrək qəlbli o qız kitab qucaqlar,
Əzik kağızlarla dolubdur otaq.
Sığallayıb köhnə lələk qələmi
Xəyalda həyata gələr bəxtnamə.
Dəstə kağızları ovcunda əzər,
Çıxar ovucuna xəyal pərvazı
Qaranlıq otağda səssizcə gəzər
Yazılmamış qalan şeir avazı.

4.

Payız, sarı saçın gözəldir hədsiz.
Günəbaxan kimi zövq paylayırsan.
Amma pis xasiyyət vardır ki səndə:
Məim hisslərimlə çox oynayırsan!
Yarpaqların sanki təklifnamələr
Məndən bəxti yolub almaqdasan sən
Təkliflər becərməm baş tutubdu, bax,
Noyabr -  bəxtə toy, nişan deyəsən...

5.

Bu gün yoxa çıxdı günəş bir anda
Nur toplanıb qaldı yaş ağac, yer də.
Son yarpaqlara  ürək açanda
Yersiz xəyallara tuturdu pərdə.
Ömür sürət ilə getməkdə, çapdı,
Olmuşlar ötməkdə kövrək və bivaxt
Kimsə bəxt itirdi, kimlərsə tapdı...
Mənim itirdiyim oldu nadir vaxt!

## Tələbəyəm

Uzun sükut çökdü aləmə,
Bütün aləm gözümdən ötdü.
Hazırlanmamış qalan o dərslər
Yaxamdan yox, boğazımdan tutdu.

Körpə kimi dünya elminə,
Maraqlıyam, bunu bilməzsiz.
Qələm alıb gah da əlimə,
Yaratdım, nədən duymazsız?

Ömrümün ilk kitabını  düzdüm.
Tələbəlik etdiyim vaxtda,
Sənin kimi mən də dostum,
Tələbəyəm hələ həyatda.

Ötər ömür, ötür fəsillər
Ən sonuncu dərs olacaq ölüm!
Hələ getməm ali Dərgaha
Növbədəki tələbəliyim...

## Duyğular

Yalqızlıq qanımı zəlitək sorar,
Həsrətin gözləri bərəlib durar.
Xəyanət – özünü bulamış bir qul,
Dəyanət – könüldə yol göstərən nur.
Əzabın yükləri çox ağırdır, çox,
Hicranla yaşamaq, boş, mənası yox,
Ümidlə dostların həyatı parlaq

Sevginin qədəmi daim xoş və ağ.
Fəlakət – almayın kədərdən kömək,
Sınıq ürək, oyan, yaşaman gərək
Qəlbin etirafı dəstə gül olur,
Halal yar, qəlbinə sığınıb da dur.
Sevginin yandıran atəş nəfəsi
Qəlb əsirməkan bu – sinə qəfəsi.

## Dördlüklər

Zağ-qarğalar çıxardılar gözümü
Dörd anlamaz alıb getdi sözümü.
Dostluğu nə halda keçirdim desəm,
Quyulara tulladılar özümü.

***

Haqqı söylə, haqq söz bəsit olacaq,
Haqqı tutsan uğur sənə güləcək.
Yalan sözün ömrü qısa, ayıq ol,
Həqiqəti gözlər səndən gələcək.

***

Dəyanəti unutsan, bil ki
Vicdan səndən öc alar bir gün.
İmanlı ol, halal ol  çünki.
İmdad və güc qəlbdə qan olsun.

***

Şairəm deyib hər şeyi yazdım,
Dediklərim çürük, bənzər ələfə.
Çapalamaqda idrakım içində
Yazılmayan böyük fəlsəfə.

***

Qərarsız kəslərə açıb könlümü,
Gizli sirlərini olıb dayandım.
Sovurmaq istərlər göyə külümü,
Düşməndən min yansam, dostdan bir yandım.

***

Dünyada bir məxluq doğuldu,
Nifrət imiş onun dayəsi.
Adəm oğlunun canı boğuldu,
Eşq deyilənin yandı dəyəsi.

***

Günaha çevrilsə insan torpağı,
Onun varlığını təkidlər güya.
İnsan hələ diri,  öldüyü çağı
Günahı tökülər gözünə tutya.

***

Mey içib dünyanı unutduğun çağ
Tükənən olsa da ruzi əməlin,
Qəflətə qapınma, sağ-soluna bax,
Düşmənə göstərmə naçar əhvalın.

***

Baxışım dikilər mərmər daşlara,
İnsanın ömründən parça şeirlər.
Gözləri aləmdən dolar yaşlara
Bəndəlik borcunu anlar dirilər.

***

Nadana xoş olmayan elmi- irfan istəməz,
Hər şeyə qənim çıxar, dinçlik, ixlas istəməz.
Hamımız  yaradana ərk edərik quluq deyə
Nəfs, əsəb əhli ondan nəzir-niyaz istəməz.

***

Məhəbbət günəşdən, nurdan yaranmış,
Məhəbbət, atəşdən, közdən yaranmış.
Mənim ürəyimtək təmiz, qayğısız,
Məhəbbət – varlığım, yoxdan yaranmış.

***

Aşiqə min qovğa çıxar əzəldən,
Dərdə dərman axtar şeir, qəzəldən.
Siz keçdiniz sevgi deyən məkandan.
Əfv etmərəm... Sizi Allah əfv etsin.

***

Üzülməkdə ən sonuncu yarpaq,
Yerin üzü döndü xəzana.
Ürəyimdə qışqırdı ayrılıq,
Eşq tüpürdü mənimtək insana...

***

Qızılgülün yarpaqlarıtək
Ürəyim də əlvan bir rəngdə
Yaşıl yarpaq titrəkləritək.
Eşq qaldı rahatlıqla cəngdə.

# Həzinlik

Dəstə-dəstə keçib getdi dostlarım.
Hörməti tapdayıb üz tutarlar gah
Əriyin getdi mumtək sözlərim.
Boşaldı birdən hər yan nagah
Cana doydum əzab çölündə
Qubar qonan qəlbi yumruqlaram.
Süzüb getsəm gözün selində
Duzluluqdan dodaqlar taram.
Getdim.
Getdik –
İki cığırdan...
Mən bir dəli, divanə oldum,
O qayğısız bitən diləkdən.
Usaqlaşıb ələfə qondum,
Gülməyi niyə
Unutdu dodağım.
Yanıb gedən bu hissiz ürək.
Qorxuram, sabaha səbrim
Tükənin bitsə, nə olar fələk?
İlğım,
Əzab,
Ələmlər qucan
Sarmaşıqtək bürüyər idrakımı
Dostda, yarda yoxmu vicdan,
Qaytarıb ver, ürək, sabahımı.
Şəffaf ilham saçanda parlaq
Söz töküldü var  büsatından
İndi məni axtarın əbədi.
Aşiqlərin qəlb dastanından...

# Ana yer

Sanki kainatdan ayrılan kimi,
Dünya gözlərimə sığınıb durar.
Zülmərlər içində qalan o pəri,
Xəyalın öldürər, saçını darar.

Tilsim qucaqlayıb mürgüləyən yer,
Sübh çağı qubarın atar havaya.
Bağrına min ürək toplandığından
Dərdini başlayıb deyər səmaya.

Dünya,  bəlaların yuvası özün
Gözündəki dərdə dözəmmədim, yox!
Yorğun işıq saçır arzu ulduzun
Böyük dözümün var, edirəm qulluq!

Ana yer, güclüdür səndəki səbat
Götürüb gedirsən asi bəndəni.
Tarix səni haqda verər hesabat,
Bağrı gen anama oxşatdım səni.

Tilsimin çox imiş, göz açıb gördüm,
Doğulan hər adam gedəcək bir gün
Dua etdim, üzü səcdəyə durdum.
Bəs etməz qan oldu göz yaşı bütün.

Gecə etdi sənə şimşək təcavüz.
Sanki dərdin köçdü qat-qat dərinə.
Tala dediklərin döndərəndə üz
Söykəndim dərsinə, hikmətlərinə.

Quşlar təmiz halda gəlsinlər dilə,
Qubarlardan sağlam saxlasın özün.
Sənə həsr etdiyim qəsidəm ilə,
Ana yer, köksünə baş qoydum bu gün!..

## Xəstə dünya

Ayaqlard tapdanar dəyəri.
İtkisi – canında çapıq
Qismət, tale hürlük gətirib.
Göstərməkdə özünə təzyiq.
Gülməkdədir özüncə səma.
Bözarıbdı Ay da acıqda.
Görünməz bəxt elçisi – Hüma
Canlanar min cür  fərziyədə,
Bəşər aciz,
Nə etmək gərək
Çəkilməyir neçün rəzalət?
Daş heykəltək, vücudda ürək.
Aləm axtarmaqda ədalət
Lənətlərə gəldimi dünya?
Qisasçımı bu qədər fələk?
İnsan olan etkin məxluqat
Zərbələrdən üzgün və həlak
Tövşüməkdədir varlanan yer.
Götürə bilmir ağır yükünü,
Tapmayır dərddaş, həmdəmin,
Gözlər axır zaman hökmünü.
Əsməyə başlar payız küləyi.
Zarıyıb yatar, xəstəhal güya.
Bəxt günəşi açmaz camalın
Ağır dərdə tutulub dünya...

***

Getdin,
Bütün bədənim kefsiz etdin
Gözüm kor,
Qulağım kar,
Kirpiklətimdə yaş.
Mənə yox, özgəyə qəlbini bağladın,
Ola bilmədin mənə can, yoldaş.
Nə sən duymadın necədir nəfəsim,
Nə mən duydum ürək döyüntüsün,
Ağırlıq içində sinə qəfəsim.
Mehr-məhəbbətə yer verməz bütün.
Unut sən,
Tarixdən yer aldı sevgi.
Çətindir haləti, çıxmaz fəryadı.
Oldun dərdlərimin bir ömür yarı
Oldum ayrılığın oldum ustadı!

***

1.

Rəhm edə bilmirəm indi könlümə,
Düşsün ayağıma, razıyam, yaxşı
Mən  sakitcə ondan vaz keçdim...

2.

Görən gözüm, görmə, bəs, yetər!
Sənin bu aləmdə gördüyün sitəm
Nədən bu qədər çaşqın görürsən?

3.

Sinəmdəki bir ovuc külü
Səpib çıxdım yerin bağrına.
Dərdli ürəyimə hiss etdirməkçün.

4.

Mən mələk deyiləm, əsla,
Qanadım da yox, budur, baxın.
Arzu da, ürək də sınıb gedibdir.

5.

Unuduldu odlu sözlərim,
Səhifələr döndü yuxuya.
Çevrilərəm bir gün özüm,
Xatirəmdəki Haqq duya.

***

1.

Üzümə damcılayan nədir?
Ovcumla silib gördüm.
Damcıladı ağ vərəq üstə
Qanlı göz yaşım...

2.

O, saya bilməz, hətta danışmaz,
Qəmgin zar dayanar, duyğusuz.
Sıxıbdı ovcunda ürəyini.
O mənim ruhum imiş...

3.

Həsrət sonda, həsrətdir ümman,
Orda yatmaqdadır viranə könül.
Qurtarın, deyilməz, ox dəyib, əzgin
Su qayatək dönməkdə daşa.

4.

Hələ axtarırsan bar belə bağdan...
Xəyanətin – ömrünə sahib.
Günahını gizlətməz xəta,
Bizi gizlətməkdə çinar da.

5.

Bəla - o nədir? Qələndər dərdmi?
Dərvişin bəxtsizliyimi?
Ya mənim hüsnümmü bəxtsizliyə yol?
Şəxsən mənim üçün bəla bu – özün...

1.
Yarpaqlartək solub, büzüşüb
Ürəkciyim can atar.
Eşitmədin onun dərdini.
Sağlam...

2.
Sarı, xəstə olan xəzəllər,
Rəqsə başlar mənim sayəmdə
Payız bilmədi onların qədrin.
Ey vah...

3.
Xışıldayıb çıxarar səsun.
Dabanıma da ilişdi yarpaq
Dinləyirəm geçə-gündüz boyu
Əzab nəğməsini...

4.
Yağışdakı əksimə baxıb.
Ovcum ilə əzib aldım.
Qocaldığımı anlatdı damcı
Iyirmi səkkiz yaşda...

5.
Ömür ötdü, dünya xəstədir,
Həyan olaq onun dərdinə.
Sonda baş qoyub, torpağı qucub
Anam kimi yerin bağrına...
Ovundum...

1.
Söylə, məndən nə gözləyirsən?
Mən həyatdan gözləmədim kömək.
O da, mən də vermədik vədə!

2.
Ey kədərsiz, ey sevimli əzizim –
Kəpənəklər, rəqsə başlayın.
Bu gün onun toyudur, toyu...

3.
Qara ruhlar məhv edib bədənu,
Xəbər verdi asiliyimdən.
Ayaq basdım alovlu yurda...

4.
Yazıb oxudum könül yazısın.
Asdım da hətta boynumdan.
Təqib edər hər bir söz məni...

5.
Əzabda ruhum, əzabda canım
Həyatımın küləyi əsdi.
Eşq alovlanıb getdi fələyə,
Ürək qərib...

## Gözəl mənzərə

1.
Yağış yağar iynətək, sanki
Sancılmaqda başıma səssiz,
Bulaqlara  çevrilər könlüm.

2.
Sabah toydur, əlbəttə, sənin evində.
Sabah yeniləşər səninçün həyat.
Sən mənimtək hüzürlü olma.

3.
Dil tökmə dilini anladım, amma
Xəyala dalıb qaldı.
Onun sayəsində tülkü də salam verir.

4.
Rauf Parfinin hətat və yaradıcılığını öyrənincə
Ömrüm yeni fəlsəfəyə döndü.
Axtarıram indi özümü...

5.
Şövkət Rəhman ruh ilə danışar,
Vətəndə axtarar Vətəni.
Əbədilikdə tapar izlərini.

***

1.
Sən kimsən mənimçün, mən kiməm sənə!?
Suallarda sovruldu sevgi
Öz bəxtimə etdim suiqəsd.

2.
Keçmiş məndən küsüb getdi.
Yeni günə can atdığımçün.
Xatirəyə çevrildi illər.

3.
Azadlığa çıxan göyərçin,
Mənzilini itirib qaldı,
Getdi... pərilər keçən cığırdan.

4.
Bütün etdiyinə günahkar özün,
Səni sevdiyimçün özüm asiyəm.
Gözlərimi oy, ürəyimi oy
Məhəbbəti çəkəntək dara.

5.
Məni sev desənə, gədasan, insan
Heç vaxt ürəyimə etmədin şəfqət.
Tapdaladın ayaq altında.

## Könüldəki qiyam

**(Dəstə)**
***(Böyük ağrı verən şairə təqdir)***
***Rauf Pərvidən***

1.
Tez zamanda böyüdüm.
Kiçiltmək istədin məni
Tor toxuyur ürəyində qara qurd.

2.
Demə mehribanam mehrindən,
Sıçramaqda nifrətinin zəhəri.
Ölüb qaldım qatil zəhərindən.

3.
Mən son şeirimi yazdım qəbir daşıma
Səhər öz üstümə qoyun onu.
Xəbər verib durar diriliyimdən.

4.
Kəpənəktək cazibəliyəm, acizəm,
Uçuram desəm - qanadım sınıq.
Sən getdin onu sındırıb... zalım

***

1.
Şeirimlə dirilər cismim,
Qəlbim titrəyin qalar yarpaqda.
Əbədi sənə tikilib gözüm... Səmada

2.
Sonluğumu yardın dedilər,
Yarıldı başım.
Ürəyimə daşlar doldu,
Qan qusdum, atışmadı həlak oldu can.

3.
Canıyanan oldum hamıya,
Ağladı ürək...
Bilmədim mən onu əzizləməyi...

4.
Şeir yazdım, gedib qəlbə çatar deyə.
Yetişə bilmədim onun qəlbinə
Cəfəngitatmış onun içində...

5.
Qələm  qəzəbdən kağızı gəmirər
Siçovulağız,
Xəyalımı bənd edən adın.
Ürəyimi əzir amansız
Şair öldü eşqinin köksündə.

***

1.
Mən şairəm dedi o...
Şair eşqdən tapmadı xeyir.
Ürəyini atıb getdi...

2.
O şair idi...
Şairlərin çadırı dəyişdi
Ölümündən sonra da dəyişdi,
Ölməyim gəlir mənim də.

3.
Sarmaşığa dönmək istərəm,
İmkan versən burüyər dünyanı
Ürəyinə hörər könlümü...

4.
Nifrət uçağında uçdum astaca,
Hislərimi gömdüm Kərbəla çölündə.
Dağılan cismim... xırda kəsəklər.

5.
Xəyanətə dözən olmayın
Yük oldum mən, yalqızlıq, sənə,
Özümü tapdım dinclikdən.

***

1.
Bu qədər tələsmə dedim ürəyə.
O deyir, biz məşhur, şair olarıq,
... dost olmaq istədim əcəlim ilə.

2.
Şeirlərimi deməyin boşuna.
Qəlbinizin gözü kormu deyirəm...
Oyanmaqda nadir fəlsəfə!

3.
Səma sakit, o, bilici imiş
Yerdəki qala, qovğaya qoşulmaz heç!
Onun üçün yüksək və böyük...

4..
Qum saatından tökülən ömrüm,
Zərrələrdən ruh alır ilham.
Şah dastanımı yazdım bu gün.

5.
Qələm mənim qanunum olur,
Ürəyimə atılqan nizə,
Söz oxumdan ehtiyatlan, bəs.

***

1.
Xəyalımda qışqırdı ruhlar,
Batıb getdi iki qulağım.
Aləmi saxlayıb gəldi sükunət...

2.
Qızılgülün qırmızı yarpağı,
Duyğularımın xəritəsidir.
Mən başqayam, özgə dünyayam...

3.
Sübh yarpağa qonan şəbnəmtək
Kirpiklərinə qonum ahəstə.
Ağla, yaşları çökdür gözünə.

4.
Axtarırsız nəçün dünyadan?!
Ruhum gəzər özgə xəyalda.
Şeirlərimdən axtarın məni...

5.
Mən kiməm? Oxuyun hər sətrimdə.
Görkəmimdir, yazdığım şeirlər.
Mən özüməm bütöv bir kitab!

***

Ey fevral, xoşca qal, əfsanəyə dön.
Sındırıb atmısan neçə ürəyi.
Özün hisslərimə namaz oxuyub
Martın qucağına at gül-çiçəyi.

Qırılmış qapıya baxma, arama
Onda əbədilik yatar  bir sifət.
Bahar saçlarını məğrur darama,
Ayağın altına düşsə də cənnət.

Ərik güllərinə qondu xan qızı, [1]
Onu soyuq qarla dondurub qoydun,
"Xoşbəxt yaşamaq"dı onun arzusu
Ürəyimə nifrət endirib qoydun.

Oyanmaq istədim baharda, heyhat,
Ürəyimi kimə bağladın, fevral?
Hələ oxumamış müəzzin əzan,
Mənim qiymətimi verib qoydun hal.

Ey fevral, xoşca qal, pozdum əhdimi,
Sındırıb atmısan neçə ürəyi
Qucağımdan alıb, yoldun bəxtimi.
Alıb da bahara sat sən hər şeyi.

Son namazı oxu,
Namazı oxu!
Martın quçağına tulla gülləri...

---

[1] *Xan qızı – parabizən*

# Mahiyyət

Xəyallarım – dolaşıq düşmüş ip,
O ucunu itirib qaldı.
Verə bilmir keçmişə tərtib,
Hər günüm bihudə səs oldu.
Başqadır verəsən bu qədər bəzək
Nədən bu qədər dəlilik qismət?!
Yeyib  yatmaqdasan yediyin ürək
Gecə - ərasət.
Günlərim zülmət!
Bihudə fışqırıb axar
Damarımda eşqpərəst bu qan!
Cibimdəki cırıq pullartək,
Əzilməsi çıxıb yatar "Can..."
Göz-göz edib həyat aləmin
Öz ömrünə edər sui-qəsd
Gülən kimi ağlım üstündən
"Nadan" deyə məndən edər ədz.
Ümidlərim kötük altında,
İnildəyərək yatar biməcal
Donub qalan bəxtin qarası
Gözlərimdə sürməkdə xəyal...
Dərdim dilin anlamaqdayam
Ürəyimdə dil bitib bu son.
Bu gün natiq kimi tutdum,
Məgrur oldum, əldə mikrafon.
Bu sınaqlar çox verdi dərs
Hiss edirəm xasiyyətini.
Anlamasdım, sevməsəydim
Bu dünyanın mahiyyətini...

***

Bahara gəlibdir səadət rəmzi
Ağ köynək geyəntək, bəzənib asta.
İspanaqlı yemək qoxusu tutdu,
Dərmana yetişdi biçarə xəstə.

Zövqü aşıb gedər qaranquşların,
Kədərdə mehrini gizlədib guya.
Yuvası görünən qaranquşların,
Ruzi nəsibiylə dolmaqda dünya.

***

Çaylar axmağa başlar
Sakit, hay salar,
Min illik nəqmətək sehirli ahəng!
Ötən xəyallarım işıqla dolar,
Gözümə görünər aləm rəngbərəng.

Bu qədim dağlara baxır, baxıram,
Saçı ağ zirvələr təvazö edir.
Duyğular selində coşub axıram
Dərd içrə ürəkçün mütilik nədir.

Ərik güllərindən bal yığar arı,
Aləm bu ağlıqdan geyinər hicab.
Sevgim, sevgim gələr bəxt gülən sarı
Qəlbimdə körpə quş etməkdə xitab.

Bahar gözlərimə nur alıb gələr,
Bahar həyatımı eşqə bürüyər.
Körpə hisslərimi yorğana bələr,
Qədim bir mahnıya onu çevirər.

***

“Ol” deyə yaratdı Allah,
Ürək batdı qəlb siyahına.
Uyğun olmaz bu dünya bir yol
Dözən, müşkül könül “ah”ına.
Yarandım mən sevgidən bitib,
Hər anda artmaqda boyum.
Qismət deyə hamıya yetib,
Pislikləri rədd edər duyum.
Qat-qat yatır içimdə dərdlər,
Mən ordayam, duyğusa yoxdur...
Hələ də insafı gözləyər,
Şəfəq boyu mürgüləyər nur.
Bənövşə rəng hisslərim kimi.
Ətir saçır leylihal bəxtim
Hər bir qəlbin olantək təbi,
Məni gözəlləşdirdi əhdim.
Məni bu cür gözləyir nicat.
Çox sınağa düşdüyüm üçün.
Vuruşmağın yaxşı deyil, həyat,
Şair olub doğulduğumçün.

## Qafiyəsiz fikirlər

Ay nənəyə bax,
Üzündəki qəmləri gör.
İndi bax ulduz sayan
Al üzlü xoşüz sənəmə.
Nəyi arzu edib oturub,
Niyə ürəyi belə hayqırıb,
Anlaya bilmirsən.

Anlasan da,
Bəxtli edə bilmirsən onu...
Ağaclara bax,
Neçə min aşiqi görüb önündə
Yarpaqlarını adlar qucmuş.
Burağına bənd olub yaylıq
Hamısı bir tarix, pünhan
Eşq olub ziyanlıq
Pəriləşib gözəl can.
Eheeey...
Sən hələ oturmusan susmaz dilinlə
əfsanə soyləyib,
Nəyisə gözləyib.
Vaxt öldürür...

Zaman dəyişmədi,
Dünya yerində
Vedrələrini doldurmuş
Rüzgar təşvişi.

O yana getsə də.
Bu yana getsə də
Dartışacaqdır. Yaşamağa qoymaz.
Gülüb, nəfəs almaq – boş-boş danışıq
Sevilib sevilmək – məsxərəbazlıq
Tapdayıb gedirik cansız torpağı.
Hissizlik əlindan ahu-vay ilə...

Oldu, yetər, azdırma, həyat!
Hanısı  nigaha düzülüb əbəs.
Hədərə gedibdir, xoş ötən gənclik
Gözəl sifətimə kölgə salmış qəm.

Solub qalmış kimi, açılmaz durub
Gələn bahardakı lalələr də həm.
Sevgi yox!
Düz sözüm,
Ümidlənmə sən.
Ürəyim ağaca bağlanıb durar
Budur, nəzər yetir,
Bir bax doyunca.
Asılıb qalıbdır kölgətək günah,
Heç zaman düşünə bilməyirsən.
Ruhiyyətim edir dilimi gümrah...

Ey həyat!

***

Könlümün küçəsi, könlümün meyli,
Qəlbsizə qəlb verib utanırsanmı?
Eşq deyib öləndə naəlac Leyli,
Ümidlə doğmalıq var sanırsanmı?
Boş şeydir,
Boş şeydir,
Boş şeydir.
Ağlımı məhv edən qəribə xilqət
Qəlbdəki cin ilə tutaşar müdam.
Gün boyu gözlərin açar həqiqət,
Tablaşıb ruhumu tapdar biiman
Fəlsəfə,
Fəlsəfə,
Fəlsəfə...

Sinəmi yumruqlar köhnə ağrılar
Sarıyıb ürəyim ağlayar bihal.

Köksümə baxıram sonsuz yarıqlar.
O gəlir deyəntək açar varlıq fal
Hər dəfə,
Hər dəfə,
Hər dəfə.

Mərc tutub güləşə atıldım, budur,
Yüksək məhəbbəti edincə qalxan.
Sevgim ağuşunda edib təntənə.
Əcəbcə, yuxumda hayqırmaqda can:
Qələbə,
Qələbə,
Qələbə!..

**Təbiət**

Pörtərək gedirəm
Nəfəsim sıxılır.
Izdiham qaynaşır qarışqa kimi
Baxışım ilhamtək bir pəri gəzər.
Axtarış bihudə getməkdə yenə...
Uzaqdan qışqırır
Hansısa veyil.
Gəlməyə başlayar qaçqın  havalar
Dağıdar varlıq saçını qəstdən,
Qarı bənzəri olub  küləklər
Dumanları ayırar.
Yollar görünməz
Gözlərimə asılıb qoyulan pərdə.
Səmə günbəzinə bu səfər nədir,
Külün səpib yanan iysiz siqara?

Damcıdan kömək yox.
Ovcu tuturam
Ürəyim sıxılır, bu nə görünüş?
Əsəblər zingildəyər.
Büzülmüş üzüm –
Ovuc töküb bir yola
Bir doyumluq...
Səmtsiz tərəfdə qarıldayır, baxın,
Qarğanın qızışan qəhqəhə səsi
Asılıb yatıbdı çətinlik ilə
Qocalmış buludun buxaq, çənəsi.

***2019-cu il***

***

Hələ vaxt var deyirsən, yox deyirəm.
Fürsət azdır,
Vaxt dayanıb qalar.
Yiyəsiz qalan qan verən ürək
Yanar alov içrə,
Dinlə, dad çəkər...

Ruhumun dilində civildər kimsə.
Birisi ağıl öyrədib dolmaz
Xəyalım incidi uşaqsayağı.
İncikliyi tutar ürəyin,
Tərsliyi aləmə yayılar.
Canım xoş gəlməz özümə,
Hiss etmirsən dərdin sönməyini.

Ey Rəbbim,
İndicə gözümü yumsam.
Keçmişim tutar boğazımdan.
Xətalar, günahlar qarışıb.

Ayırıb alarlar özündən,
Xəyallar haylayar qoşunun
Mən də bir məhbustək əsirəm.
Keçmişdə qlıbıbdır qaranlıq,
Bəsirəm

Hə, heç nəyi görməyir gözlər,
İndi dünya aldanışını, həm də
Qəddarlığını...

Dost pisliyini,
Könülün saxtakar xəyanətlərini,
Qismətin amansız qəlb qırmasını.

Qan saçan şəfəqin köksünə
Baş qoyub yatmaqda dərdlərim.
Səmavi görünən gözümə
Sığmada
Bəxtlərim,
əhdlərim...

Oldu,
Gedirəm, yyığışdır, götür
Tale-qismətimin doldu torbası
Bu gün səma gözəl.
Bu gün dan gözəl,
Ahənglər qoynunda süzməkdəyəm məst
Məni səsləməkdə hürlər bağrına...

Bəxtiqara qızdan qalıb əndişə
Həyat da saxladı şadlıq nəğməsin.
Güllər öz dilində dedi surəsin
Aşkar eləməkdə sonadək eşqin.

Aha, hey, mələklər, əlimdən tutun,
Artıq razı deyil bu qəlb qalmağa!
Kömək edin sonda könül sınmadan
O biri dünyanı keçib almağa...

Fürsət azdır, vaxt durub qalar...

## Sükunət dünyası

Səssizliyə öyrəşdim, ana,
Gecəm sakit,
Gündüzüm sakit.
İşarələr – mənə pərvanə,
Siqnallara sirrim gizlin.
Güllər deyər mənə qəlb sözün
Gəlib çatmaz, var neçə maneə?..
Qaldırıb gecədə avazın
Çəyirtgələr deyir nəğmə.
Aləm baxır darıxıb, halsız
Xəstə kimi mürgülər isti yel
Yuxulayıb ilham pərisi
Qulağıma pıçıldar şeir.
Xəyalımda qışqırar ruhlar.
Batıb qalar iki qulağım,
Səs salıb gecə qüssələr
Oyanmada sanki titrəməm...
Tikilirəm, pəncərəm aşır,
Genişliyə yayılır dünya.
Sürətlərə çağırıb həmişə
Günəş qəlbə saçmaqda ziya...
Sükunətə cuman olsam da

Zəfər quc deyə ağlı çaşdırar.
Xəyalıma girişən böyük
Nöqsanımı hə deyib gizləyər.
Hələ danlar sökülər zərif
Yaşamağa güc, qüdrət artar.
Sükunətdə yaranan şeirim
Azan kimi qəlbi oyadar.

***

Tutqun nur yayıbdır qəmli üzünə
Günəş qarı kimi mürgüdə olan.
Qan sıçrar, yaralı olan köksündə
Qəbahət, rəzalət izləri qalan.

Şəfəqin qansaçan üzü bozarıb,
Ələmin almaqda zülmətdən dünya.
Böyük zəhmətləri əks edən qərib,
Ayın sifətində dağ qalıb güya.

***

Gah yaşamaqdan bezib,
Adamdan qaçıb,
Bərkiyib alaram yeri köksümə,
Torpağı üstümə ört sən, ey fələk,
Quzğunlar qonmasın əsla üstümə.

Səndən başqa xilas edəcək yol yox,
Ey Allah! Mənzilin yolunu görsət,
Fitnə toz qoparan zalım dünyada
Bir an yaşamağa qalmadı fürsət.

Gecənin qoynunda dincələk bir az...

# Eşq

Şəfəqə dikilən baxışlarımda
Donub əbədilik qaldı surəti
Yarpaqlar son payız üzülən kimi.
Sonda yaşamağa söndü cürəti,
Namazgülü açdı şadlıq libasın.
Arzular dincliyə söylədi: ölə!
Baxışın yerində matəm, mərasim
Hirslənib ağladı duyğular ilə.
Gecə girib qalmaq istəyər idi,
Bu gün getmək üçün tələsdi o bəy.
Onu uzaqlarda gözlər taleyi
Mənimkidən bəxşiş qisməti vartək
Eşq - qərib, mən – qərib, qaldıq ki, təkcə,
Sovrulub uçmaqda hurilik dəmləri.
Gecə taqqıldayıb gül atan bəyə,
Bağlandı könlümün pəncərələri!

***

İnanmaq istərəm sabahkı günə,
Nəfslik içinə soxulmam gərək.
Ulduzlu buluda fərqsiz gecədə
Qəribə nağılda doğulmam gərək.

Bahar havasına darıxmışam, ah,
Həsrət tutmaqdadır təpələrə yan.
Gülüb gözləməkdə lalələr, vallah,
Saralan qəlbim də rəng alar əlvan.

***

Sakit gecə düşdü
Yenə ürəyimdə əski bir qiyam.
Çöküb gedər köhnə qəmlərim
Şiddətlə axmağa başlayan
Göz yaşlarımın selində axıb
O gedən mənim dəyərim,
Xuda can...

Yer üzünə gəldim, bir müjdə olub
Bəlkə bədbəxtliyin izin örtməyə,
Bəlkə bütün dərdi çiynimə alıb
Sənə tərəf getməyə,
Getməyə...
Xuda can...

Üsyanlarım vücudumu üzür.
Damarımı yarıb çıxarkən,
Kefsiz qalan vücudumu
Eşq yıxılarkən,
Hə, yalnız eşq mənim düşmənim
Gündə başlanar hər cür hiylə.
Gözlər məni bu aləmzadə
İblisin əlindən qurtar,
Xuda can...

Nə söz vardır indi mənə deyiləsi,
Nə həsrət var, sakit  gülümsər.
Baxışımdan asıb qoyulası
Sınıq təbəssümlərini...
Unudaram dedim, yox... eheeey,
Yaddaşıma girib alan cin.
Üzümdə dünənki gülüş salmış qırış
Xuda can...

Sən bilirsən ha, hamısını...
Sən görürsən səma üstündən
Mənim ürəyimin tıppıltısında,
Oxunmaqda köhnə qəsidə,
Qismət sürünüb gedən atçapan.
Ruhsuz olub getdim ardından
Dünənki o bəxtiyar eşqin
Çıxdım yasından, yadından
Heç olmasa sən qoru, sən qoru məni
Xuda can...

## Ahu-vay

1.
Əvf edin, inciməyin, yazmasam,
Gözünüz axtarsa beytimi
Çox danışıb oluram çox pərt
Necə qaytarım gedişimi?
Hər bir söz əzilər boğazımda
Riyalar arada azdırandı.
Yaz deyə yalançı duyğular
Aldatdı
Aldatdı
Aldatdı.

2.
Darığıb qalantək bu dünya
Boz, qədim hisslərə darıxdı.
Gecə çökdü bu zülmət içində,
İlk dəfə bu eşqdən ağrındı
Dəlitək,
Dəlitək,
Dəlitək...

Ahəstə ağladı söyüdlər
Əyincə torpağa başını
Ənhara söylədi dərdini
Yumaqdadır göz yaşını
Min qorxu.
Min qorxu,
Min qorxu...

3.
Didilib getməkdə bu ürək.
Qışqırıq tıxanar damağa.
Dünən bəxt  köşkündən o mələk,
Tələsib atıldı otlağa.
Göyərmiş ot kimi əzilən
Donubdur gözündə heyrəti.
Ən coşqun sözləri söyləyən
Şairin sonadək qeyrəti.
Eşq öldü,
Söz öldü.
Hiss öldü.

*******

Mürgüləyib açar böyük, mələk dan,
Pərqu balışını tapşırar başa.
Səssizcə ibadət edir anlayan,
Həmin bağrıdaşa...
Sığınır,
Sığınır, ürək yanıq, çat
Yandırır eşqi cəhənnəm odu
Tale etməkdədir səssiz zarafat,
Qismət bunca qorxuludu?!

***

Zəncirlənib dilindən,
Odlu söz çıxarmı səs salıb?!
Anlamaz, söz desəm minbərdən,
Bir fərqli görüntülər,
Görüntülər...
Mən eşq deyə yüklənən duyğu,
Ağladıb məni gah da güldürər,
Duyuram,
Sabaha qəmimtək
Öz yarım öldürər,
Öldürər!..

## Dan

Ağ paltara bürününcə dan,
Əsasını tuk-tuk vurar bu ara.
Oyadınca günəşi, dərhal,
Gecə qaranlığı çəkir kənara.

## Günorta

Ərinərək əsnədi kefsiz.
Mürgüləyib atmaqda qədəm
Bir an dinclik verər fikrə, xəyala
Yuxusunu tamamlar adam.

## Əsr

Oyun düşər qəlbincə, min cürə
Ürəkdə şadlıq olar hökmran.
Dəyişmərəm bu anı dürrə,
Rahat olar qəlbimdə iman.

## Axşam namazı

İşığı gözü qamaşdırar,
Qızılı don geyəndə şəfəq.
Onun çox böyük nüfuzu var,
Oxunanda "İxlas", "Nas", "Fələq"...

## Dan yeri

Olduqca gözəl, olduqca nazik,
Matəmdəki tək baxar baxışı.
Görünsə də hər zaman incik,
Ehtirasla dolar dərgahı, yaxşı.

***

Ey Allah, illərlə zarımadım heç.
Hətta göz yaşımdan yarandı göllər.
Özün köməkçi ol, burun çəkməyək.
Çözülsün mən açan nicatkar əllər,
Ey Allah, ey Allah!

Günahım var isə bağışla hamsın,
Bu mübarək günün haqqı-hörməti.
Daha çox Sənə də yaxınlıq duysun
Rəsulunu sevən gözəl ümməti

Ey Allah, ey Allah!
Hələ bir bakirə dan açılacaq,
Mürgülü ürəyi oyadar azan.
Çox illər durmadan salavat çəkib
Dil gösəl kəlməni deyib hər zaman,
Ey Allah, ey Allah!

*******

Şüur dincəlsin,
Bir az dincini alsın,
Sonda macal da yöx yazalı
Nə yazaq,
Nə istər ürək?
Dünən eşq arzulu idim mən,
Hayqırdım, gəlirdi bəxtdən məstanə.
Bugünsə kimsəsiz qalanda bu incik ürək.
Necə dastan yazsın,
Həyatını etsin şadiman
Bəxtim haqda söyləyimmi yalan?
Yox,
Yazma.
Sakit dur, qələm.
Bu gün sehrin keçmir biləsən,
Dünən nəğməyə dönmüşdü aləm.
Bugün qəlbdə göz açdı ələm.
İndi o yox!
İndi eşq yox, səs salıb mahnılar desəm
Sətir düzmək ağır, fikirlər desəm...
O yox!
Misralar qarışıb getdi.
Göz yaşlarım qara rənglə çimər
Xəyallarım əzablarda qalantək,

Dəli kimi qəhqəhə çəkər...
Üstümə gülər
Hissiz...
Qəlbimə rəhmim gəlir,
Dilimə rəhmim gəlir,
Əlimə rəhmim gəlir.
De, necə yazım,
De nəyi yazım?
Gülüb duran bu saxta üzlər,
Gülüb baxan o saxta gözlər.
Birdən mənə etsə rişğənd
Yooox,
Asan olmadan qaldı yaşam
Sinəmdəki ağrılarla
Çatlar ilə.
İndi yazmıram
Azad qalan qələm şadlığını
Dinləsin təşvişsiz asiman.
Axı ürəyim fəryadın dinləməz heç kim!
Gözümdəkinin gülüş deyil, kədərliyini
Bilə bilməz heç kim.
O bilmədi,
Hiss etməyən ürəyimin istəyin
Dünya duyarmı?
Duymadı heç kim.
İndi yazmıram
Son anda boğazımdan çıxan,
Pak nəfəsdən üfürdüyüm,
Mənim mahnılarımı,
Son kəlmələr aşkar edəcək.
İndi o yox!
İndi eşq yox!

İndi mən yox!
Alov söz yazmalıdır...
Ötmüşümü.
Keçmişimi,
Ürəyimdəki əbədi eşqimi
Qəbir daşı deməkdə indi.
Şüur dincəlsin,
Bir az dincini alsın...

***

Şəhərdə gəzirəm, biləsən, halsız,
Küçələr düpbədüz, küçə döngə, tin.
Göz yaşım torpağa tökülür, aciz
Səni sevən ürək yumruqtək əzgin.
Sübh doğar parlayıb şüalar saçar.
Aydın gecələrdə neon çırağı.
Sənə həsrət canım yastığı qucar.
Qəlb titrər həsrətdən yarpaq sayağı
Xəstə xəyalları qovmaqda külək.
Mənə xeyirxahtək başqadır iqlim
Səssiz öz-özümə sual verərək:
Gecəyə bənddirmi idrakım, əqlim?
Qarşımda dayanan köhnə masada
Həsrətlərlə dolan dəftərlərim var.
Səni düşünmədən yaşayım necə?
Hər bir səhifəmdə yazılmısan – yar!..

## Söz ver

Daha söz qalmamış,
Keymi idrakım?!
Qafiyələr yanlış .
Xəyaltək - təbii...
Bu boş sözlərimi höccələyəcək
Şeriyyətin qərib qalmış məktəbi...
Söz ağlar şüurumda
Səs salar üsyan!
Ürəyim səssizcə durar minbərdə.
Hıçqırıq tutantək susar dil bu an
Salar tarlxə.
Söz yox!
Dediyi qədirbilən elə.
Şairəm deyənlər – hövsələsi pir.
Şeir yazmaq bunca çətin ey Tanrım,
Sözlərdə gizlənmiş gör nə qədər sirr!
Söz ver!
Elə söz ki,
Açılsın lalə.
Hər söz ahəngindən yüksəlsin əhval
Yaranan misralar qüssəsiz bala,
Olsun o xoşhal...
Sözü dərk eləsin sağ olan hər can,
Dirilik nə imiş anlatsın şerim
Mənim məhəbbətim danışmaz, inan,
Mənim sevgimdədir şairlik sehrim.
Bir söz ver, Allahım...
Bir söz ver!..

## Qısqanmayasan

Yenə haray salar bahar nəğməsi,
Danda quşlar qurmaqda məclis
Əcayib yollarda cıxmayır səsim,
Oluram təslim...

Eh, xəyalın  uçan  zamanı
Məni alıb gedər sanki İrəmə.
Gözəlləşər eşqin çəməni,
Mərcan saçar gecə dövrəmə.

Yanan ürək sevgimiz rəmzi
Siz kralsız şəksiz qəlbimə.
Ötən günün səslənər ərzi,
Alqış söyləyər aləm səbrimə.

Yox.
Şübhə yox,
Qəlbdəki eşqə.
Yalnız özüm sənə münasib
Ərköyünlük nazdan əriyib,
Ərinmədən izharlar yazıb...

İşvə edib səslədi bizi
Yaradılan sirr birliyinə.
İnanıram, qolumdan tutub
Apararsan gözəl gülşənə..

Dualarda soruşdum təkrar.
Qəm küləyi təkrar əsməsin.
Məni möhkəm sevə bilməyən, yar,
Allahdan qısqanclıq gəlməsin,

Allahdan qısqanclıq gəlməsin,

***

Ərik gül açanda sən gələr idin,
İydə gül açanda olardın aşna.
Kərənəklər sakit uçuşardılar
Deyərək etmə xəta...

Dünən bəxtdən par-par parladı gözüm,
Səni gözləyirdim, həyat xoş idi.
Səninçün darıxdım bütün hissimlə,
Ağlamağım gəldi...

Qəlbimin laləsi deyib oxşardın,
Qəlbin ziyası tək mən əzizləndim.
Onda ürəyimə fərəh bəxş edən
Sən idin, bəyim.

Lalən soluxaraq yatır ovcunda,
İndi isinməyir bahar... bu hal nə?
Yuxusuz gecədə məlhəm tapılmaz
İndi dərdinə...

# Payız balladası

**1.**
Payız geymiş sapsarı libas.
Rəncərəmi yarpaqlar öpər.
Buludlara səs salar ixlas
Yer üzünü yay da tərk edər.

Alaca qarğalar necə şən durub,
Qovaqlar çılpaqlıq yaşar.
Güllər üzünü yağışda yuyub,
Kəpənəklərə nağıl danışar.

Sakit hava, zəiflər ətim.
Qələndərtək geyindi varlıq,
Xiyabanlar elə bil yetim,
Ağaclara ilişib yarlıq.

Qurumuş xəzan xışıldar
Addımımı saymaqda səssiz.
Ürəyimdə nəsə qımıldar
Qalmıştəkəm aləmdə yalqız.

Dinc ol deyir sükunət bir an.
Hisslərimi oyuncaq edər.
Kirpiklərimi kor yuxu alan
Gecə evimə sürünüb girər.

Payız həmdəm pəncərəm ilə,
Qovaq silkər ağ biləklərin
Dinləyirəm, tanıdım elə
Ot bürümüş gül ləklərin!

**2.**

Kül səpəntək səmaya varlıq,
Zəif nurun yaymaqda günəş.
Külək əsər, könlümdə yarıq
Ürəyi sıxar bu yuxa atəş.

Payız belə, məcnuntək baxar.
Əsnər, yatar yal-yamac müdam.
Tüfanlar köksündə çaxar.
Rütubətə tab etməz adam!

Sükut içində səssiz bu dünya,
Yarpaqları sayıram bir-bir.
Darıxdırıcı nə qədər əhya,
Könül nadinc, əsirəm tit-tir.

Tale yazan köhnə şeirin
Yaz qoca çinar gövdəsinə.
Ömrüm bitər, sözümü lakin
Mən yazaram ürək üstünə.

Rayız oyun tapar son deyə.
Qəmgin baxar sapsarı qadın
Mən o haqda yazdım hekayə,
"Payızda xəyal" qoydum adın.

Qızılların ağac səpməkdə,
Göz-göz edib sərvətin yerə.
Bəxt hardasa mürgüləməkdə,
Payızı verdik şaxtaya-ərə.

Göy üzünə toplandı buludlar,
Damcılamağa başladı gözdən yaş.
Külək əsib səbir arzular,
Deyər: hə desəm, çıxar günəş.

Payız verməmiş qışa yerin,
Sarı saçın dağıtdı külək
Çimdiklədi dan çağı burnun,
O – oktyabr adlı ay, mələk.

## Payız nağılı

Qarğalar uzaqdan gəlib qarıldadı,
Palıd başa tökdü ağac hisslərin.
Payız gəldi.
Payız gəldi...
Dodaq pıçıldadı,
Yağış yuyub getdi ayaq izlərini.
Dəlitək gülümsər göztərməkdə üz,
Çiyninə alınca qəmlər yükünü.
Səmanın göz yaşı yalanmı, ya düz?
Pis qismət yad edər fəndgir tülkünü.
Tale üzgün gəzər pəncərəm ilə,
Gəzər sübh çağının soyuq nəfəsi.
Bir canlı bilmədi, yaşayır necə?
Qalğıb endiyitək sinə qəfəsi.
Payiz çəmənlərdən ayrilar bir-bir
Nəmiş havaları ciyərə dolar.
Səmanın aynası tutdu bu dəm kir.
Ağ bulud silməkçün üzülüb qalar

Zağcaya məkandır o dikbaş qovaq.
Yanıq yarpaqlara bürünər zəmin.
Həyat payız haqda söz danışaraq
Yaxşı dualarla söyləsin amin...

***

Qəlbindən nə keçsə, Allahdan istə.
Axıb gedən çaya söylə yuxunu.
Qanadı sınıqdır, qal sevgin üstə,
Əzizləyib qoru tənha quşunu.

İndi yaşatmırıq öyüd, nəsihət,
Məğrurluq ev istər xəyala cumub.
Eşqi qorumaqla dərdlərimizi
Bir təpə başına qoyaq biz, gömüb

***

Ruhun hədsiz boşluqda qaldı.
Baxışlarımı basdı rütubət.
Məndən sənə yadigar qaldı
Əziyyət...

Yola çıxdı, tüfeyli yolçu
Qismət adlı torbasın götürüb
Yaşanmayan yaşım var idi.
Oxudum itirib...

Halqa olub dərib çıxılan
Ələm.
Nifrət
Hamsı bir yerdə
Sükunətdə rahatlıq tapdım
Asudə...

Zəifləyib  incimiş canım,
Tir-tir əsdirməkdə günahlar.
Oxunmada ən sonuncu hököm
Dinləyən gümrahlar...

Qalxıb düşdü ürəyim aciz,
Çırt – üzüldü həyatın ilməyi
Alıb gedər gecə səmaya
Haqqın mələyi...

Yaşayıb ötürdüm ömrümü tamam,
Özümdən razıyam əlhəmdulillah.
Getməkdəyəm mən Sənə tərəf
Qarşıla, Allah!..

***

Yuxu.
Önümdə baş verən əhvalat
Gözlədiyim, gah unutduğum an,
Sən onda varsan.
Mən bunda giryan.
Nəhayət tutuşar qəlblər.
Ləblər...

Yuxu.
Qəbiristanlıq gəldi, cilvəli,
Yuxumdan oyatma dedim sərçəyə.
Onda sən, keçmişim
Baxar görünməli.
Tamam tərə batıb oyandım.
Boşluğa düşdüm deyə.

Yuxu
Kimliyimi unutduran yuxu.
Xəyalət aləmim genişdir mənim,
Elə sevdalı göz,
Elə təbəssüm.
Yoxa çıxmaqdadır vücudum, canım.
Damarda kükrəyib axmaqda qanım.

Yuxu
Dincəlir ürək.
İztirab əriyir.

Əlindən tuturam utancaq qalıb,
Könül xəritəndən söz höccələyib.
Keçmişdəki eşqi  gəzib, axtarıb,
Dizlərim titrəyər,
Diz çökərəm mən,
Bəxtim qarşısında mən bir acizə
Bu qədər il ötüb, yadda deyil, şərt.
Sevdiyim yuxudan tapdım möcüzə,
Sənsə oldun pərt...

Yuxu.
Sükut!
Qəti danışma!
Eləmə aşkar.
Oyanmaq istəməm çevrən – səadət.
İndi buyurub get deməyin zinhar.
Gözləyib sevmişəm mən səni fəqət,
Hamı susdu.
Susub qaldı qəlb.
Gülüşlü duyğular dünənki üsyan

Yuxudu, qəribə yuxudu ömrüm.
Qarşında pak ruhum itirmiş səsin.
Yamansan,
Hə, yaman!
Qınadın bunca.
İndi o bəd sözü gətirmə dilə,
Milyon parçalara bölündüm necə.
İndi verəmmirsən
Əli bir ələ.
Tay olma dula...

Yuxu.
Əbədi yuxu olsun  yaxşılığa,
Onda yalnız sən varsan,
Mən də yanında.
Kənar aləm ilə etsən də ülfət,
Od qoyub getməyim xanimanına.
Yuxularım əziz,
Odur həqiqət.
Sevdalı gözlərin qaytarıb verdi,
Dəyərli sözləri, milyon il ötüb
Zar-zar qəhətçilik, eşitdim indi...
Bəxtimə salmasın yamanlıq dəlik.
Səndən gen düşməyə yetişməz gücüm,
İndi bəxtim ilə zalim taledən
Hay çəkib mərdliklə
Alaram uçum...
Sən ol yanımda...

***

Yarım, alın Allah rizasın,
Mələkələr keçsin duaya.
Gündə oxuyun “Bəqərə”, “Yasin”,
Yetişdirsin Kəbətullaya.

Əməyiniz hədsiz, bilirəm.
Qullar deyil, sevginiz gərək.
Onda mən bəxtəvər olaram
İman ilə vuracaq ürək!

Halal yerim olun daima.
Günahlara yetmək pis hal,
Qara edər nur üzü zina,
Ağır olar axirətdə sual.

Əllərimdən bərk tutasız kaş,
Naməhrəmdən pərdələnin ancaq.
İmanlı ilə olaq biz yoldaş,
Zikr ilə vaxt keçirəydi dodaq.

Dəfn çağı dinləyək Quran,
Dualar eləyib salavat çəkək.
İbadət üçün yaranmış insan.
Fərzdən, sünnətdən dönməyək.

Başlanacaq xeyirli  həyat,
Yaranacaq bizdən gələcək
On beş ili ötürdüm rahat.
İndi gözüm bəxtdən güləcək.

Əlhəmdulillah, səbrim bol mənim,
Tapdım dostu, siztək sevəni.
Aşiqiyəm  ilk sübh çağında
Bölüşməkçün qəlbdə güvəni.

Namazım gözləyir məni
Şükranına edirəm iddia.
“Qəmli olma!” deyəntək indi
Yuxumda da xəbərdar Xuda...

Yar, niyyət et təmiz ürəkdən.
Tuş gələk savaba biz yenə.
Və layiq olaq biz  bir gün
Getməkçün Kəbə evinə..

## Xəyalda yaratdığım bəxtim

***(Monoloq)***

Parlaq ulduzlara doğru baxıram...Bitib-tükənməyən boşluqlarda, bir dəfə olsa da sənin gözlərinlə baxa bilərəmmi deyib sonsuz səmalara baxıram.
Hər gecə vulkan kimi püskürməyə hazır duran duyğularımın işgəncəsində özümə yer tapa bilməyib cansız kimi dolanıram. Yuxu, eh... Onun məndən küsüb getməyi neçə il oldu. Doluxsunan gözlərimi ovxalaya-ovxalaya, halsız vəziyyətdə qəmin ağırlığından əyilməyə başlayan kirpiklərimi ahəstə yumub, sanki onlara dincini almaq üçün imkan verirəm. Lakin ağlın hökmündəki fikrim əsla fikirləşməkdən yorulmadı. Sənin və mənim aramızdakı düşünülməmiş münasibət və yaşantılarımızı birbəbir təftiş etməkdə, etməkdədir.

Mən səni düşünməməyə çalışsam da, sanki unudulmaq ağla. Ağır batır deyə. Beynimə ağır gürzlə vurmağa başlayır. Başımı əllərim arasına alınca,o yanımdan bu yanıma çevrilirəm. Kirpiklərim barmaqlıq vəzifəsini daşıdığı anda sızıb çıxa bilməyən göz yaşlarım tənha ürəyin tilsiminə düşüb “ah” çəkməkdən üzümdən sürətlə axmağa başladı.
Hicranın gecələri o qədər uzundur ki... Mən sanki uzaq yola çıxmış səyyaha oxşayıram. Nəhayətsiz və sirli xəyallar cəngəlliyində azıb qalsam da, bəxtə güvənən aşiqtək çala-çuxur yollarda yıxıla-yıxıla məqsədin çadırına bir gün yetişəcəyimi düşünüb, yüngülləşmiş kimi hiss edirəm özümü.
Bu deyilmi sənə olan məhəbbətimin səssiz açıqlaması? Bu deyilmi qəlbimizi alışdırıb məndəm min çağırım uzaqda olsan da sevginin güçünü hiss edən halda Məhəbbət və Sədaqət sarayına qoşun yeritmək ondan ən alicənab duyğular nişanəsi?
Ey bəylərin bəyi, könlümün sultanı!
Güzgüyə bax!
Bir dəfə də özünün baxışlarına dikil!
Sənin inkar etdiyin hisslərin bir gün sənin qismətinə, həyatının mənasına çevrilməsi mümkündür.
Niyə bu qədər biganəsən?
Sən və mən yaranmışıq ki, dayanmadan həvəslə vuran bu ürəyə eşq və böyük sevgini Allahın özü yerləşdirib qoysun.
Sən isə onları qəbul etmirsən, özgələrlə sevincini də ən xoş duyğularını da bölüşmək istəmirsən.
Bəzən səni xudbin deyə, bəzən də ən qorxaq, özünü – hə, hə, eynən özünü anlamaqdan qorxan bir dəlisifət kimsəyə oxşadıram.
Eh! – Ürəyim yenə sancdı.
Dərindən ah çəkirəm.
Sən bilmirsən, bənzərsiz həsrətlərin oxlarından min dəfə yaralanan köksümdəki quş.

Sanki min illərdən bəri sənə tərəf getməyə can atan zəif, yalqız yolçuyam...
Düşünməkdəyəm, düşünməkdəyəm.
Xəyallar məni belə məqsədlərə yetirsə, onda sən daim mənim qarşımda olarsan.
Mən səni xəyallarımda yaratdım, kəşf etdim.
Mən özümu gecədəki "zülmət mələyi"nə oxşadıram
Mən gündüzlə çıxışa girişmirəm.
Çünki onda sən məndən uzaqda olacaqsan.
Gecə düşməsini darıxıb, arzulayıb gözlədiyimi bilmirsən, onda mən hər gün sənin hüzuruna tələsirəm, üzünə doyunca baxıram...
Xəyalımın məhsulu olan yarım...
Bir gün bu həyatıda mövcudluğunun isbat olunub qubarsız duyğularım kimi – təmiz ağappaq atda gəlib məni götürüb gedəcəyinə inanıb yaşayıram...
Sən məni əlbəttə axtarmağa gələcəksən, sultanım...

## Şor dünyamız

Mən öz xəyallarımdan bərpa etdiyim öz dünyamı özgələrin əlinə tapşırdım.
Mən öz qəlbimdə yaratdığım eşqi bircə ???? işgəncəsində öldürdüm.
Mən...həyatım boyu, mənə varlığım üçüm xidmət etmiş "onun" əksi olan qaranlığı da öyüb aldım...
Məm cəlladam.
Özü-özünə qəsd edən qara qulam!..
Bizim dünyamızda payız fəsli olmazdı.
Biz yaşayan dünyada xəzəllər eşq ağacından tökülməzdi...
Əkdiyimiz güllər heç vaxt günəşin şüalarında yanıb, qırışıb, büzüşməzdi...

Sən... bəli, sən mənimtək Qara qula üsyan edib qəlb tarını qırıb getməzdin.
Eheeey, mənim sədaqətdən yer almış dərvazam möhkəmdir, deyə hər yana səs salan kimiyəm.
Əsl düşmənin, könlümün sarayda pusquda oturduğunu bilməmişəm.
Vəfa bir kənarda sakit gözləyincə, könlüm üsyanına qulaq asır, sevginin baxışları qəmli yer alınca, səbrin ayağına baş vurunca ianə etməkdədir.
"Könlünü nurlanmaqdan saxla, onun yanında ol" deyir...
Mənim dünyama öz qəlbim sahibini girov etdi .
Mən acizəm,
Mən qüvvəsizəm.
Mən dilsizəm.
Yandır, yandır od içində qalsın qubarsız aləmim, saf duyğularım, kəpənək rəngindəki arzularım... küləklər gündə oynayıb dartınan, hər küçəyə baş alan xəyallarım yansın.
Çırtıllayıb yansın
Sən isə eşit...
Könül fəryadını.
Hüznlən indi.
Bığaltı gül indi
Niyə sakit durmusan?
Sən, ey zalım!
Bu gün bütün duyğularım qarşısında pərt və naçar halda baş əyib qalmısan.
Mənim dünyam qübarsız idi...
Mən sevdiyim aləmdə yaxşılıq hökmdar idi.
Mən... mən səninlə bəxtiyar idim...
İndi...
Özün xarabaya çevirdiyin dünyamız yoxdur...
Dünyanda iblislərlə ömür-gün keçirt.

Peşimanlıq adlı dostun bir gün vicdanını oyadıb, addımlarını mənə tərəf yönəldəndə.
Məni tapmayacaqsan.
Çünki mən...
Özgə qəlb sahibinin iman gətirdiyi İrəmdə zövqü-şövqə dolunca, eşqin rahatlıq bəxş edən meyindən dadıb yaşamaqda olacağam.
Salamat qal!

## Ürək və eşq əfsanəsi

Günlərin birində dərdlərə tabe olmayan ürək eşq ilə çəkişməkdə idi.
-Ey eşq, sən məni dinc burax!
-Niyə indi, mənsiz halın necə keçər?
-Xoş, sən olsan nə baş verər?
-Eh ürək... axı mənsiz dünya ləzzətini ala bilməzsən.
-Yox a, elədirmi? Olmağın, qalmağın iztirabdır axı. Niyə bunca mən-mən edirsən?
-Yox, aldanma, məndə əda nə gəzir? Hər imanı tam vücudun sinəsində sevgi çeşməsindən içib, insaf soyundan dünya üzünü görürəm!
Sonra sənə məhəbbət göstərirəm...
Sən isə insanın yaşayışına daxilsən. Əlbəttə, mən olmaqla...
Mən təşrif gətirdikdə, sən həyəcanlanırsan.
Öz ayaq səsinlə vücudları agah edirsən.
Sən məni düşünürsənmi?
-Bəli, mən qarışıq hamı səni yaxşı tanıyır.
Hiss edir. Əhval-aqibət, mən çətinlik görməkdəyəm.
Sağlam vücudun həyəcanını da, səndən tapdığım azarı da eyni tutmağım doğrudur
Mənimlə dost olarmısan? Gərək deyil.

Sənsiz həm bir vücudu başqa cür hiss edərəm...
-Axmaq, aldanma!
Yaxşı, mənimlə dost ola bilmirsənsə, səhərədək daşa dönəsən.
Hələ mənə möhtac olasan.
Eşq bunları deyib bir bədəndə döyünən ürəyi tərk edib getdi.
Ələm üstündə ən böyük düşməni olmuş Rahatlıqla dostluğunu dayandırdı.
Bir il ötdü.
İki il...
Ürək isə Eşqsiz darıxmağa başladı.
Həsrəti yanına çağırdı, o gəlmədi.
Bu vaxt of-f-f deyən əsəbindən bezdi.
-Sahibimə nə oldu... Ürək həyəcandan tez-tez vurmağa başladı.
-Ola biər mənim yalqızlığım ona təsir etmiş olsun... indi nə etmək lazımdır?
Aha, nə dedi? Eşqsiz qəlbi nə edirəm dedimi?
Sahibim məni düşünmədi. Axı belə yükü necə götürərəm? Ey Həsrət sən niyə məni yoxlamamısan?
Uzaqdan nida gəldi:
-Ey ürək, sən xüdbinsən, özünü də, ömrünü də xəzana döndərdin.
Eşq olmayan yerdə mənə də yer yoxdur!
-Niyə axı?.. Niyə?..
-Başa düş! İnsan adi ürəklə də yaşaya bilir, amma hər bir anı səmərəsiz olur.
-Eşq, məhəbbətlə dostlaşan qəlbə bütün varlıq mürivət göstərir.
Həsrət, yəni mən də onu tez-tez yoxlayıram.
İndi sən məni artıq çağırma.
Aradan aylar ötdü...
Eşq, Rahatlıqla bərabər Nifrətlə sirdaş oldu.
Bir gün ürək xəyala ürəyini açdı.
Onun sözünə baxıb Eşqi geri qaytarmağı əhd etdi.

-Eh, nə oldusa oldu. Sahibim də məni düşünüb əzab çəkir.
Gəl, o Eşq ilə dostluq edək.
Eşq yenə istər-istəməz Ürəyin yanına yaxınlaşdı.
O aləm içində başsız hərəkət edib Rahatlıq, Xəyanət, Nifrət, Qısqanclıqla dostlaşıb, səmimiliyi itirməkdə idi.
Eşq hiylə ilə söz açdı:
-Hə, Ürək, niyə mənə belə qəribə baxırsan?
-Ay Eşq, niyə bu qədər dəyişib qaldın?
Əvvəlkitək istiliyin, şuxluğun da yox...
Hə, sənsiz mənə, mənsiz sənə canlı bədəndə yer olmadığını bilirdin axı. İndi isə olduğum kimi qəbul etməyə məcbursan.
İkiləşmisən ha... yaxşı... gedişim mümkün...
Ürək bu sözdən narahatlığa düşüb, acıqlandı.
Fikrə dalıb, öz-özünə deyindi:
"Əfsus, öz vaxtında Eşqlə dostluq edərdim, dünyadakı bütün canlılar xoşbəxt yaşayırdılar".
-Ay Eşq, çarəsiz qalıb mənimlə dostluğa başladın. Gəl, indi bəhsləşməyək...
-Yaxşı, görünür indi özünə gəldin. Lakin mənim bir şərtim var... Sənin hüzuruna tək gəlməyəcəyəm. Quruyub qaldın ki? Onları da qəbul etməlisən, belə olmasa səninlə qala bilmərəm.
Ürək ətrafına baxıb bir  atılıb-düşdü və çarəsiz halda sakit pıçıldadı.
-Mən razıyam...
-O sözün deyilməsi ilə dünyadakı bütün duyğular ürəyin hər yerinə doluşdular
Ondan bəri Mehr, Sədaqət, Məhəbbət, Xəyanət, Nifrət, Qısqanclıq... yan-yana yaşamaqdadırlar...

# Qəlbimdə bahar

Səni fəsillər kimi gözlədim, ey ürək! Gəlmədin! Səni deyib, yaz gəldi, çiçəklərin yarpağı töküldü.
Mənə görə onlar səni arzulayıb gözləyəntək sanki...
Günəşin nuru çiçəkləri canlandırıb getdi.
Alovlanıb yanan eşq əzabına dözməyib, yayda qurumaqdadır qızılgül...
Payız da gəldi, sənin yanında xəstəhal, çarəsiz olub.
Bulud yas saxladı, umidi sabah xəzan olacağı üçün.
Səma kənara çəkildi, qəzəbli şimşəkləri ürəyini dəldi...
Qızılgül də mənimtək ağladı
Yarpağında sırgalandı göz yaşı!
Sən hələ də sakitsən...
Qış ürəyini buzlaşdırıb gedir, hərarətin mənə yetişməz
Gəl, ərit qəlbi. Söylə, sevilmək ayıbmı?
Niyə gəlmirsən?
Xəyallardan axtardım gizlində.
Həsrət iztirabı boğazımdan tutar.
Qısqanclıq əzabı canımdan keçər.
Niyə qınayırsan?
Zarıldayar əski, əzgin xatirə.

Sənin ilk baxışını,
Könlündən keçən həyəcanı unutmaq çətin.
Addımlarından qalan hər bir izə üzümü sürtmək istəyirəm.
Mən səni, yox, yox, özümü itirdim...
Ürəyimi qaytarıb özümə ver.
Bu gün bahar fəslidir eldə.
Bu gün ürəkdə şiddətli soyuq var.
Buna səbəb sənsən!
Buna səbəb mən.

## Kədərim mənim

Gecə səmaya baxsam, maviliyindən gözlərim qamaşardı.. O, əslində də mavi idimi? Eh, dostum, bu sonsuz səmaya sən mənim gözlərimlə bax! Mənim ürəyimdə çuşa gələn məhəbbətimin parlaq dəlilləridir o.

Ulduzların parıldamasını görmüsənmi?

Ay!–İlləri həsrət içimdə yola salıb yola dikilən heç baş tutmayan, ümid edib dayanmış gözlərini yada salmırmı o?

Baş üzərinə  topa-topa leysan buludları yığılmağa başlasa, şeh kimi üzümə damcılayan göz yaşlarımı yada salmırmı yağışlar?

Söylə!

Yer üzünü örtməyə başlayan kom-kom otlar və sapsarı olub gözlərimi qamaşdıran qurudulmuş güllər ürəyimdə yer almış sonsuz mehrimdən hədiyyə deyilmi?

Dünənki gün başqa idi. Bu gün üfüq tərəfə sakitcə axıb gedən günəş kimi tənha qalan qərib ürəyimi qucaqlayıb, gecə kimi qara çadraya bürüyüb alan aciz qızı o, bu gün yada salmadı. O xəbər almadı. Onun üçün havaya  dönüb gedən əks-səda olub qaldım...

## ANAMA MƏKTUB

Allahın mərhəməti ilə Çümə günündə xoş dualar, yaxşı niyyətlərlə iş başladıq. Bütün varlıq məni güldürüb, sevindirib, ümid məşəlini daha yüksəyə qaldırmaqda mənə arxa durmağa başlayanda ürəyim səmimi hisslərdən titrədi. Bu, şükranlıq hissi idi, Anacan!

Bütün Cümə namazlarından qayıdan çağda mən də ibadətə tələsirdim. Göz yaşı tökdüm, mənim də varlıq səslərimi bir gün eşidib getməyimin mümkünlüyü xəyalımdan keçdi. Ürəyimə bir

daha köz düşdü. Mən dərdsiz, gülərüz qıztək böyüsəm də ürəyimdəki əzəli ağrılarımı gözlərimdən oxuyub duran yeganə insanım, mötəbərim sənsən, Anacan!

Əcr çağı dinc, sakit ötməyə başladı, yenidən namazlığıma diz çöldüm, səcdəyə baş qoyanda göz önümdən xəta və çatışmazlıqlarım, günah və savab işlərim keçməyə başladı. Mən həyatdan aldığım savablarımı hər gün xəyalımda təkrarlayıb, bundan sonra özümü nəzarətdə saxlayacağıma söz versəm də, yenə də yuxudakl  xətaları təkrarlamaqdayam.

Məni, əlindən bir iş gəlməyən qızını bağışla, Anacan!

Yaradan Allahdan özgəsinə inanmadan yandım, sevinmədən yandım. Axşam qaranlığında qəlbimi bir  dilxorluq tutmağa başladı. Niyə, səbəb nə? Cinlər məclis qurmağa başladığı bu vaxtda düşmənlərim də canlanmaqdadır. Ürəyinə qəfil ox sancılıb can verən çalağan quşu kimi hiss edirəm özümü. İçimdə hər saniyə təkrarlanan, nənəmin öyrətdiyi kəlimələri səsləndirirəm, ürəyim bir az rahatlıq tapır. Mənim günüm sakit ötəntək görünsə də, qəlbimin naləsi, dadına daş yetişməz halsız sübh yerinədək gedib çıxıram.

Qızının dərdinə məlhəm ol, Anacan!

Dan yeri. Gecə qara köynəyini geyəndə köksümdəki yatmış çalağan quşcığaz üsyan qaldırır, qulaqlarımdakı şövqü boğub məni taqətsiz qoyur... Qəlbində canlanma baş qaldıranda yalnız və yalnız yazıb dinclik almaq mümkündür. Ələmimi qələmimdən alıram. Dörd divar kürəklərimdən sıxmaqdadır. Şairə böyük dərdlə birgə, hamının da daşıya bilməyəcəyi qüvvətli qəlb də verilib. Ürəyi gen, yaxşı-yamanı eyni görən, heç kimə pislik diləməyən, rəhmdil, könlü boş, bacarıqsız qızından razı ol, Anacan!

Ətrafımda yaxşılar da, yamanlar da var var, amma tamamilə bu ürək, bu ruh yalqızdır. Mənim özümün özümə gah dostluq, gah düşmənçilik etməyim də səbəbsiz deyil. Ürəyimə

bərəkallah, ruhumun incukliyini qəbul edir. Ağlımın axmaq qərarlarını yoluna qoyur. Lakin sənə mənimtək qız verməsindən hələ çox sevinəcək, çöx şükürlər edib, dualarında yada salacaqsan. Səndən başqa duaçımmı var, Anacan?!

Zülmət bürünüb evimə girənə qədər gəldi. Çıraq var, amma mən onunla çıxışa can atmıram. Qulağımda cingildəyən şövqlərini sakit dinləyirəm. Bildiyim kimi onları danışdırıb, hansısa musiqiləri bəstələməyə başlayıram. Şeir yazıram. Dərdlərim sətirlərə köçür, gözümə sakit yuxu ensə də, kirpiklərimi yummağa qorxuram. Mən beləyəm... Unutmağa başladığım insanları baxış yuxularımda görüb qalmaqdan çəkinirəm. Eh, Anacanım... Bəxti gözləyib gözləri həsrətdən qaralıb gedən, üzü acılar tapan qızını Qarı qız deyə qəmlənməyə başlama. Qarımış qızların vəfada, sədaqətdə bənzərsiz olmalarına inan, Anacan!

Bu dünyada məndən sonra yalqız qalmasın deyə kimlərisə gözləyərsən. Bilməzsən ki, böyük Rəbbim məni hər saniyədə qorumaqdadır, kimi sevsəm məndən alıb kənarlaşdıracaqdır... Özün neçəsinə arxa oldun, tale üçün mübarizə aparmayan namərdlərə boyun əyməməyimi bilirsən. Allah məni onlara qısqandırmasa. eyib məndəmi, Ana? Gəlin indi təşvişləri düşünməyək.Mən Rəbbimin hüzuruna təmiz üzlə, pakizə halda getsəm, bunun özü mənim üçün səadətdir. Mən çooox düşünürəm. Xəyalpərəst demə. Həyatı və yaşamaq mahiyyətini anlayan günlərimdən başlayıb mənə bu tale sınaqları da gizlənpaç oyunutək adəti hal olub qaldı. Mənimtək səbrlərə sığınıb, filosof olan qızına ər deyil, nurlu iman dilə, Anacan!

Dan ağarmaqdadır. Dincəlməyən xoruz banlamaqdadır.

Mənimsə qəlbimdə bir əcayib hiss oyanmaqda. Ağlamaqdan nəmləşən kirpiklərimi tərpədib hələ yuxudan doymayan, amma qəlbim oyaq halda Azan səsini eşitmək ümidində qulaqlarımı səsə tuturam. Bu mənə rahatlıq verəcək olsa da, mən yaradan

Allaha şükranlıq edəcək halda məzarıstana hazırlaşıram. Namazlığım üstündə Yaradanla üzləşirəm. Ulu Rəbbimə şükürlər edib səcdəyə baş qoyuram. Eynən sənin dizinə hüzurlandığım kimi, namazlığım da mənim ruhumu yüksəklərə qaldırır. Sən qızının necə səadətli olduğunu bilməyirsən.

Gəl, özümüzə sağlıq, bəşəriyyətə insaf, sönməz iman diləyib dua edək.

Sən hamıdan yaxşısan, Anacan!..

## Könülə yazılan yazılar

***

Qəlbin dinclik almasını istəsən, səni narahat edəcək həsədi yaxınına da buraxma.

***

Hamının dediyi sözü demə, dediyindən dönmə.

***

İlhamın gəlişi eyni dalğanın əzablı və ağrılı anlarını yada salır.
Övladı Ana, şeiri isə şair dünyaya gətirir.
Şikəst övlad doğulanda da Ana onu sevgi ilə böyüdür.
Şair də onun kimi, hər yaratdığı sətri gözünün qarasıtək qoruyur.
Övladının ayağına tikan batsa, Ananın bağrı yanar.
Ətraf mühit övladı, təbiət və həyat isə şairi tərbiyələndirər. Ananın kimliyi, övlad böyüdükcə aldığı tərbiyədən bilindiyi kimi, şairin şeirləri onun kimliyini aydınlaşdırar, təyin edər
Qəribədir!
Oxşarlıq nə qədərdir?
Ana övladı, şair şeirləri ilə yaşayır.
Onda da möcüzələrə inanmırsızmı?

*2013-cü il*

***

Mən heç kimdən qorxmuram, deyə haray çəkəndən deyil, Allahdan qorxuram deyən halda bəndəsinə rəva olmayan əməllər işlədən adamdan qorxun...

## Yuxu

Xəstəxanaya müayinədən keçmək üçün gəldim.
"Kardioloqiya" yazılan qapını döydüm:
-Gəlin – deyə xoş səs ucaldı.
Həkim kardioqramda yoxlayıb. əyri-üyrü yazıların çıxdığı kağızı bir an belə keçmədən əlimə verdi
Baxıb lal qaldım.
Xətlərin hər yer, hər yerində hərflər yerləşmişdi.
Şəfa diləyən hər ikimiz cəhd edib çalışdıq və oradakı yazını oxumağa müvəffəq olduq:
"Sevmək həyatına narahatlıq gətirir".
Kardioqramma məni bu sözlərdən agah etdi.
Nəhayət, ürəyimin "dil"ini anlayan tərcüməçini tapdım.
Kardioloqun hüzuruna indi tez-tez getsəm, qəribliyə almayın deyib. Gündəliyimə nöqtə qoydum... tam oyandım.
Gördüklərimin hamısı yuxu imiş...

*26 avqust 2015-ci il*

## Ahənglər

Bilirsənmi, məhəbbətin əksini harada gördüm?
Öz ürəyimdə.
Sənin axtardığın o ahənglər
Məcnun gedən yoldan, onun ardından keçib getmişdir.
Mən və qəlb!
Onlar – hədsiz, hüdudsuz,

Xəyalətin mənzilində azmış dəli.
Baxıram, qoca tutun altında zarıyan bir ruh ölməkdədir.
O mənim əzabkeş qəlbimdir.

***

Övlad tərbiyəsinə, zamanın dəyişməsinə mühit səbəbkardır deməyin.
Əslində, həmin mühiti də insan özünə uyğunlaşdırır və yaradır.

***

Elə insanlar var ki... sadə və kədərsiz görünür.
Lakin gözlərinə diqqətlə baxsan, nəfsi kəskin, hiyləgər, tamahkar insan surəti aşkar olur.
Gözlərini oynadan adamdan yaxşılıq gözləməyin!

***

Ağappaq danda, ağappaq kağıza
Ağappaq qardan ilham alıb,
Ağ arzuda seyr edincə,
Ağ atda gələcək şahzadəni gözləyib
Ağ könlümdən axıb gələn
Ağ şeirimi
yazdım..
Ağappaq danda...

***

Xəyalımda Aya çıxmağı arzulayardım.
Ona yaxın olmağımı anladır
Ürəyimdəki buzluqlar...

***

Səssizlik, səssizlik – dilsiz varlıq...
Gözü doldurar, qara quyunu.
Səs gələr uzaqdan elas…
Tuk-tuk…

***

Talelər nə qədər oxşar,
Talelər nə qədər cığal
Bir misrada o qədər faciə…

***

Şeiriyyət mənim qəmli gözlərimdir.
Orda düzülən sətirlər göz yaşlarımdır.
Ağ kağıza bürünüb dərdlərim yatar.

***

Şair quş olsa,
Şeirlər onun qanadı,
İlham isə onu uçuşa səsləyən
əsas güc

***

İti qələmi,
Amurun (eşq Allahının)
Hazır duran kamanına oxşadıram.
Ondan ox (söz) uçsa,
İstənilən qəlbi bölüb atması mümkün.
Şairin acığının tutmasından çəkinin.

***

İnsanın surəti xarici gözəlliyinin ilk yaradıcısıdır.

***

Mənim qürurum, sənin mənsəbindən də yuxarıda durur...

***

Məğrurluq arxasında acizlik gizlənməkdədir...

***

Səni olduğun kimi qəbul etməyən insan xudbinliyin ən ucasıdır.

***

Mən yüksəkliyə can atdığım halda ayaqlarım yerə daha möhkəm yapışdı.
Onlar xəyallarımla hələ də barışa bilmirlər...

***

Ehtirası imanın örkənindən başqa neç nə cilovlaya bilməz.

***

Yaxşı ki, məndən aralanmısan, yoxsa, özümü hələ də axtarıb gəzəcəkdim.

***

Gözlərin bu qədər yersiz baxmasaydı?
Bir belə  canlandırmasa...
Özün məni görərdinmi surətim?

***

Şəklinə baxdıgım arada, ürəyimə ağrı dolmaqda.
Şəkildə də sən mənə gülürsən kimi durmusan.
Yanımda olmasan da indi çətinlikdəsən, Ürəyi əzablım...

***

Sevirəm deyib qaraçılıq etmə.
Qaraçıların sevgisi çantasında,
Duyğuları boğazlarında ilişib qalıbdır...

***

Həyatda qorunub qlamağın mümkün olan nədir bu – özlüyün, dəyərin.

***

Gözüm torlaşdı – arxada qalan günahlarımı görməmək üçün.

***

Öz qədrim üçün ağlayıram deyirsən. Əgər doğrudan da dəyərini dəyərləndirsəydin vaxtı ağlamaqla keçirməzdin.

***

Qönçələrin açılmasına tamaşa etmək – maraqlı. O, həmişə həyatın davam etməsini, vaxtlı-vaxtında duyğuların yenidən oyanmasını yadıma salır. Qönçələr – bizim ümidimiz, yaşamağı onlardan öyrənək. Onlar nadir filosoflardırlar.

***

Şairin qələmi itidir dedilər, tərifədilər, alqışladılar,
Qələmin iti ucu onlara dəydikdə
Acılar yağdırdılar, qələmin ucunu sındırdılar
Yaltaqlanan təkəbbürlər əslini aşkar etdi.
Şair isə sakitdir...

***

Maraqlı, kitabdan iki səhifə oxuyub dayananda insanı yuxu basarmış...
Telefon deyilən mətahdan səhər-axşam dirəşib on kitaba yetən məlumatı oxusa da ərinməzmiş.
Nə olardı ki, gözlər də zamana uyğunlaşsaydı?

***

Bu qədər sözü mənə eşitdirmə.
Eşitməm daşa dönüb.

***

- O anasına: Böyüsəm, səni Həccə apararam dedi.
Anası alqışlayıb dua etdi, niyyətinə yet dedi.
O böyüdü. Özü istədiyi kimi "Böyük" oldu. Oturuşu, duruşu da...
Lakin... anasını səfərə götürüb apardığı yer "Kirayəlik evlər" oldu.
İndi böyk xərcləri düşməyin yeri yox. O, böyük oldu...

***

Sən ümidsizliyə düşdüyün vaxtda
Mən ümidlə yaşamağa ehtiyac duydum.

***

Şeirin meydanında "Şir" ola bilməz.
"Şeir yazmağa hərəkət edənlər, xeir-dua edənlərdir...

## Xoşbəxtəm

Baxın, bu bir sözün özü qəlbinizə inam, sabahkı gününüzə ümid, aləm dolusu zövq vermirmi?
Siz bu sözün mənasını hiss etmisinizmi?
Deməк, siz doğrudan da xoşbəxtsiniz

## Məhəbbət

Ah, bu nadir duyğunu anlamaq üçün yenə nə qədər ömrüm hədsiz həsrət və əzabda dolub ötəcək?
Üzülüb sızıldayan ürəyim nə vaxt rahatlıq tapacaq?
Az da olsa, siz də bu duyğunun tamını dadmısızmı?
Lakin onun özü nədir?
Hələ onun nə olduğunu tam tapan, deyə bilən yox.
Yəqin ki, heç tapılmayacaq da...

## Vicdan

Qəlbi çirkdən təmizləyən də, insanın kim olduğunu bildirən də vicdan.
O qəlbinizə dostdurmu?
Demək, tez bir vaxtda məhəbbət qəlbinizin qapısını döyəcəkdir.
Həyatınıza rahatlıq axıb gələcəkdir.
Bəxtin başlıca açarı vicdan paklığıdır.

## Tale

O – böyük gəmidir,
Biz isə onda üzüb gedən yolçularıq.
Bizi hansı mənzilə çatdıracağı – naməlum.
Ən mühümü, onun başladığı axımdan asan və salamat, ağılla idrakını işə salan halda keçməkdir.

Tale cizgiləri cürbəcürdür.
Üzümüzə dəydiyini dinləyən halda, eynən o cizgilərdən, gözlənilən mənzilimiz hansı dərəcədə nurlu, yaxud zülmət olduğunun fərqindəyik.
Taleyə güvənin,
Lakin özünüzü onun girovuna çevirməyin.

## Hissiyyət

Yeddinci duyğu,
Varlıqdakı səslər, təbiətin çaldığı əcayib havalar sizi məftun etməyibmi?
Fərqli yaşantılar, könüldəki həyəcanlar.
Özünə nəzarət edə bilməmək, başsız xəyallara tutulmaq bu gün başınızdan keçməyibmi?
Hiss etmisiz.
Yaşamısız.
Zövqlu anlar sizinlədir.
Hissiyyətlər axınında ehtiyyatla üzün.
Lakin çox dərinə getməyin.
Ona tabe olmaq aqibəti fəlakətdir.

## Dərd

Onun varlığına şükür, varlığına şükür deməyim gəlir.
Doğrudan da, bir düşünüb görün, həyat fəlsəfəsini anladıqda, sizcə, vasitə olan nədir?
Əlbəttə, dərd.
Dərd olmasa özümüzü dərk edərdikmi?
Dərd olmasa nadir əsərlər yaranardımı?
Deyin, dərd olmasa, mən öz səsimə sahib olardımmı?

Bəxt və bəxtsizlik sözlərinin  məğzini  hesaba alardımmı?
Dərd gülüb baxan gözlərdə də, ağlayan qəlbdə də olur.
Belə isə,
Dərdin olmasına şükür olsun deyək!

*2013-cü il*

# Ötənlər

Hər gün özümdəki dəyişiklikdən, qəlbimdəki canadoymadan yata bilmirəm.

Nə vaxtdandır çoşğunluğu, nə vaxtdandır möcüzəni gözləyir bu ürək. Halsızcasına hürküb, atılıb-düşür...imidvar olur. Yaxşılıq etmək istəyindədir ürəkciyəzim.

Düşündüm, dərindən düşündüm. Günahkar anlarımı, üsyankar, gərilən əsəblərimi sakitləşdirib, başqalarının ürəyinə ağrı verən dilimi düşünüb təəssüf etməyə başlayıram.

Kitablar oxudum. Fəlsəfə axtardım, həqiqət axtardım. Yox, əslində ürəyimdəki alovu söndürəcək məlhəmi axtararkən, tapdım...“Təəssüf edirsənsə, demək bu tövbədir”. Onu mükəmməl etmək lazımdır. Savab-günahımın getdiyi yollar tozunda bulaşıb kirlənməyə başlayan qəlbimi əslinə qaytarmaq üçün edilən tövbəmi Sən, yalnız Sən özün qəbul edəsən. Uzun yola çıxan yolçu idim, yol getdim, bol getdim... Nəhayət Sənə yaxınlaşdım. Qarşında diz çökdüm. Səcdəyə baş qoydum.

Allah, Allah...necə gözəl kəlamdır. Danışmağım gəlir, sözlər çoxdur. Ürəyimdəki qəmginlik, naşükürlük, ələmzadəlik pisliklərini kəlamlarınla geri döndərdim. Yüngülləşdim, çiynimi basıb duran, nəfəs almağıma da mene olan ağır yüklərdən xilas olmağım məni şadlandırdı. Yaxşılıq etməyim gəlir. Xeyirxah əməllərin görülməsi hər birimiz üçün buyurulduğunu anlayan halda, kiməsə xeyrim dəyirsə, mən şadlanmayım, kim şadlansın? Bəzən də pis oluram. Yox, sınaqlarından deyil, belə adamlarla rast gələndə, onların dünyagörüşü ilə mənimki üst-üstə düşməyəndə araya nifaq düşməyə başlayır. İlahi müjdələr gözləyib, qulağımı dinc edənə qədər ətrafa baxıram. Bir səsi dinləyib qalıram. Ağrılı, o qədər həyəcanlı anı hədiyyə edən gecədən gah zədələnir, gah da şükr edirəm. Zədə almağım

ondandır ki, mən sakitlik istədikdə, heç bir möcusə baş vermir. Beynimdəki şövqün səsini dinləyib yatıram. Razı salanı isə, mən fikirləşirəm, hə, həmin gecənin qoynunda fikrim, zikrim yaranaraq kağıza tökülür. Ürək oyanır. O ilahi bir günü dinləməyə başlayır...

Allah, Allah deyirəm.

Nəinki dan, mənə gözəl qəlb əta etmisən, bədənimdəki bir üzvün işləməməsinin əvəzinə mənə nə qədər iqtidar, nə qədər qüdrət hədiyyə etdin. Mən şükr etməyim, kim etsin?

Xoşbəxt insanlarda da bir dərd olur. Mənim bir dərdim var – o da-Sənin kəlamını eşitməyin nəsib olmaması, Sənin buyurduğun əməllərin öz vaxtında icra edə bilməməyim. Uşaqlığım, yetişməmiş gəncliyim yersiz günahlarla ötüb keçdiyi üçün gah təəssüflənir və Səni dərk etdirən sınaqlara şükr edirəm.

Xoşbəxtlər sırasına özümü məcburu daxil etmirəm. Bu seçim Səninkidir. Sən mənə varlığımı, kimliyimi tanımağı öyrətdin, Allah!

Bu əta edilən nemətlərə, mömin-müsəlman edib yaratdığın üçün Əlhəmdulillah!

Yaxşılar sırasında etdin, pisləri yolumdan kənarlaşdırdın! Gedən getdi, gələnlər isə qəlbimdə yer alsın, İlahim! Onlara bir kəlam kifayət edər: Əssalamu əleyküm və rəhmətullahu və bərəkətuh.

Qəlbimə sakit gecə diləyib yuxulayıram.

Dincəl, ürəyim, dincəl!..

# MÜNDƏRİCAT:

Müəllifdən .......... 3
Dəvət .......... 8
Sübh nəğməsi .......... 12
Təhəccüd .......... 14
Eşq .......... 15
Həyat .......... 16
Gecə tanqosu .......... 19
Dəniz nəğməsi .......... 22
Könül .......... 22
Ümid .......... 23
Ömür görünüşü .......... 24
Həyat .......... 24
Yağış sinfoniyası .......... 29
Zülaləyəm, Özbəkistandan .......... 30
Dərdim .......... 32
Ağrı .......... 34
Rəsulullah .......... 43
Ağladan eşq .......... 45
Leyli ürək .......... 47
Könül səhifəsi .......... 49
Aldadın… .......... 52
Niyə?.. .......... 53

Ey dost ........................................................................... 56
Yeni gün .......................................................................... 60
Paklanma ......................................................................... 61
Portret ............................................................................ 62
Payızda dağılan xəyal ......................................................... 64
Tələbəyəm ........................................................................ 66
Duyğular .......................................................................... 66
Dördlüklər ....................................................................... 67
Həzinlik ........................................................................... 70
Ana yer ............................................................................ 71
Xəstə dünya ...................................................................... 72
Gözəl mənzərə .................................................................. 77
Könüldəki qiyam ............................................................... 79
Mahiyyət .......................................................................... 85
Qafiyəsiz fikirlər ............................................................... 87
Sükunət dünyası ................................................................ 93
Eşq ................................................................................. 95
Ahu-vay ........................................................................... 97
Dan ................................................................................. 99
Günorta ........................................................................... 99
Əsr ................................................................................. 100
Axşam namazı ................................................................. 100
Dan yeri .......................................................................... 100
Söz ver ........................................................................... 104

Qısqanmayasan ........................................................................ 105
Payız balladası........................................................................ 107
Payız nağılı.............................................................................. 109
Xəyalda yaratdığım bəxtim.................................................... 115
Şor dünyamız ......................................................................... 117
Ürək və eşq əfsanəsi............................................................... 119
Qəlbimdə bahar ...................................................................... 122
Kədərim mənim...................................................................... 123
Anama məktub ....................................................................... 123
Könülə yazılan yazılar ........................................................... 126
Yuxu....................................................................................... 127
Ahənglər................................................................................. 127
Xoşbəxtəm ............................................................................. 133
Məhəbbət................................................................................ 133
Vicdan .................................................................................... 133
Tale........................................................................................ 133
Hissiyyət................................................................................. 134
Dərd........................................................................................ 134
Ötənlər.................................................................................... 136

Qeyd üçün

Qeyd üçün

Qeyd üçün

**Zilaləbanu**

# “Yalqız quş”

Texniki redaktor:
***Dönməz Vüsal***

Korrektor:
***Validə Şahməmməd qızı***

Mətbəənin direktoru: Elman Qasımov
Dizayner: Azər Aydın

Çapa imzalanmışdır: 18.05.2024.
Formatı 60x90 1/16.
Həcmi 9 ç.v. Sifariş № 46. Tiraj 200

«Zərdabi Nəşr» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru